ayb Kitab

Mətanət Ulu Şirvanlı

Salam, Qoca

ədəbi-bədii-fəlsəfi düşüncələr

Bakı
MÜTƏRCİM
2015

Bu kitab Azərbaycan Yazıçılar Birliyinin

AYB Kitab

layihəsinin nəşridir.

Layihənin rəhbəri: **Xəyal Rza**

Mətanət Ulu Şirvanlı. Salam, Qoca. Ədəbi-bədii-fəlsəfi düşüncələr.
– Bakı: Mütərcim, 2015. – 144 səh.

"Salam, Qoca" kitabı AYB-nin üzvü, şairə-publisist Mətanət Ulu Şirvanlının oxucularla növbəti görüşüdür. Kitabda şairənin ədəbi-bədii-fəlsəfi düşüncələri öz əksini tapır. Şairə bədii təxəyyülün vasitəsilə günümüzün reallıqlarına, həyati yaradıcılığa fəlsəfi baxışlarla ayna tutur. Kitabda cərəyan edən hadisələr bədii məziyyətləri, ədəbi-bədii siması ilə şairənin digər kitablarından fərqlənir. Müəllif kitabda müasir dövrümüzün publisist üslub tərzindən istifadə etmişdir.

Şairə kitabın sonunda "Həyat davam edir"... fikirlərini söyləməklə fəlsəfi fikirlərinin davam edəcəyini və gələcəkdə kitabın yeni versiyasının olacağını nəzərdə tutur.

Beləliklə, şairənin "Salam Qoca" adlı ədəbi-bədii-fəlsəfi düşüncələr kitabının geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağına ümid edirik.

ISBN: 978-9952-28-227-6

© AYB, 2015
© Mütərcim, 2015

KONSEPTUAL DÜŞÜNCƏ MƏNBƏYİ

Bu gün insanın düşüncə mədəniyyəti, sözün həqiqi mənasında, kamilləşmiş, dəyişmiş, yeniləşmiş; yalnız düşüncə məişət, qayğı konseptində deyil, daha çox mühüm problemləri həll etmək iqtidarındadır. Həyati məsələlərə antroposentrik yanaşma özünü göstərməkdədir. «Poetik enerjisi» daha güclü olan, bir sıra faydalı yaradıcılıq aspektlərində qələmini sınaqdan çıxarmış tanınmış şairə Mətanət Ulu Şirvanlının ədəbi-bədii-fəlsəfi düşüncələrini janr etibarilə esse adlandımaq olar.

Bir həqiqətdir ki, esse janr kimi ədəbiyyata və sənətə açıq, aydın münasibətdən daha çox, həyata və dövrə fəlsəfi-məntiqi yanaşmanın ifadəsi kimi meydana gəlmişdir. Bu tipli əsərlər çağdaş tənqidin yeni janr və forma axtarışlarını əks etdirməklə yanaşı, həm də ədəbiyyat və zaman, sənət və həyat, cəmiyyət və onun problemləri ətrafında dövrün ədəbi düşüncəsini, müasir yazarın mövqeyini, bir sözlə, müxtəlif konseptləri əks etdirir.

Esse paradoksal janrdır, bu janrda arqumentlərin (dəlil və sübutların) harmoniyası və assosiasiyası, müəlifin şəxsi mövqeyi üstünlük təşkil edir. Aydın söyləm, yaxud paradoksal müəyyənlik bu janrı xarakterizə edir.

Mənə verilən əlyazmada Mətanət Ulu Şirvanlının «esse» barədə düşüncəsini inikas etdirən parça diqqətimi

çəkdi. Həmin mətnin içərisindən «həqiqəti anlada bilən rabitəsiz danışıq» kəlməsi çox şey anladır. Bəli, bu anlayış esse janrının mahiyyətini təşkil edir. Əlbəttə, esse mətnləri dilin sintaktik normalarından, qanunlarından kənar, rabiətsiz nitq formalarını xatırladır. Müəllif düzgün müşahidə edə bilmişdir. Demək, esse yazanın, düşüncələrini bu və ya digər formada paylaşa bilən müəllifin onun nəzəriyyəsindən də xəbəri var.

Məncə, vital (yəni həyati) düşüncələri öz içinə alan esse bir ədəbi janr kimi xüsusi tip mətndir, kommunikativ tamlığı yaradır. Nəzəri baxımdan esse mətnləri «transtsendental» struktura malikdir. Belə mətn tipi mücərrəd-etik qayda yaradır, linqvoüslubi parametrlər doğurur. Müəllif intensionallığı ilə aydın ifadə olunur, diskursdan diskursa, abzasdan-abzaza dəyişən mətnlər arqumental xarakter alır, obyektiv-subyektiv informasiyalar təşkil olunur, vasitəli və vasitəsiz apelyasiyalar adresata ötürülür və s.

Şairə düşünür... Düşüncə anlayışı onun nöqteyi-nəzərində belə dərk edilir:

«Məni öldürə bilərlər, lakin düşüncələrimi əlimdən ala bilməzlər». Mən deyə bilmərəm, əgər bu fikir Mətanət xanımın özünəməxsusdursa, afərin həmin idraka, həmin tapıntıya. Baxın, idrak haqqında bircə kəlmə yüksək fikrə: “Heç nəyi dərk etmədən dünyaya gəldik, idrakla dünyadan köç edəcəyik”.

Zamanın təzadına fikir verin, dünyaya gəlmək, dünyadan getmək. Bəzi insanlar bu gedişi fikirləşmir.

Şairə demək istəyir ki, zaman keçdikcə dərketməmiz zənginləşir.

Şairə yenə düşünür və belə bir qənaətə gəlir ki, nə yaxşı ki, düşünmək tərzi, düşünmək mədəniyyəti varmış, nə yaxşı ki, heç kim heç kimin düşüncələrinə müdaxilə etmir. Daha doğrusu, müdaxilə edə bilmir. Bu qabiliyyəti hər bir insana vermədiyi üçün Allahıma təşəkkür edirəm. Məni öldürün, amma düşüncələrimə müdaxilə etməyin (dəyməyin), onsuz da mümkünsüzdür, onu əlimdən ala bilməzsiniz.

Düşündükcə yaşanan zəmanə, həyat gözəlləşir, bəzən adiləşir, bəzən də mürəkkəbləşir. Mətanət xanımın bədii düşüncəsi mənə görə, fəlsəfi-estetik düşüncə ilə çulğalaşır, gözəlliklər içərisində itib batır.

Zaman düşüncə qaynağı kimi səciyyələnir: «Bir zamanlar dəmir körpü üzərindən Allaha ucalan sevgim, bu gün əzabların pəncəsində necə də çırpınır» («Susan sevda»).

«Salam, Qoca» essesində vital düşüncələrlə qarşılaşırıq: Burada yalnız bir həqiqət var; həyatda doğru bildiyinin arxasınca getmək, mənəviyyatını qorumaq və ruhunu incitməmək. Bir həqiqət də var ki, düşünən insan heç nəyə qane olmur. Nə tapdıqlarına, nə də əldə etdiklərinə. Əldə etmək isə asan başa gəlmir. Bu, esse maraqlı bir sintaktik bütöv üzərində qurulub. Mətnin təşkilində müəllif sintaktik –konstruktiv təkrardan istifadə edə bilib. Bu mətndə *«yalnız bir həqiqət var-bir həqiqət də var ki»* təkrarı mətnin qapalılığını təmin etmiş, cümlələrin müəyyən fikir, düşüncə ətrafında birliyi həmin

mətnin formalaşmasına səbəb olmuşdur. Burada bir növ qapalı dairə əmələ gəlmişdir.

Yeni deyimi-«Xatirə dalğası»nı başlıq seçdiyi essedə deyilir: «Qadın düşünür; bir ömür boyu o qədər döyülmüşəm ki. Allah o günləri ömrümdən silib atsın. Ölmüş nişanlımın meyidi yanında da döyüldüm. Ölümünün səbəbkarı olduğum üçün. Heç soyuq üzünü də göstərmədilər mənə”.

«Düşüncələr»in məzmun və mahiyyətində qısa formalarla geniş fikirlər əks olunur. Odur ki, bu janra çox az müraciət olunur.Ona görə ki, janrın tələbləri böyük, yazılması isə çətin və mürəkkəbdir. Bədiiliklə, ekspressivliklə dolu olan bu örnəklərdə müəyyən bir problem (şairəni düşündürən problemlər) müstəqil şəkildə intensivləşdirilir, ifadə və deyim tərzi xüsusi olaraq nəzəri cəlb edir. Ümumiyyətlə, cəmiyyət və insan taleləri bu cür «düşüncələr»in sərhədlərinə sığır.

Bu gün bir həqiqətdir ki, cəmiyyətin ali deyilən təbəqəsində bol-bol boyalar, sadə təbəqəsində isə doğruluqlar hökm sürür. Yalan, riya, fitnə...və daha nələr… Ah, mən yoruldum ətrafımdakı bəzi boyalı simalardan.

Hörmətli Mətanət xanım necə də obyektiv olaraq bu dövrün ziddiyyətlərini, yalanın baş alıb getdiyini, insanların hər an yuxarı dairələr tərəfindən aldadıldığını bədilləşdirib.

Mətanət xanım esselərində yeni milli neologizm (əvəzliklərdən ibarət olan) yarada bilir və yaxud işlədir:

Sənli dünyamı haraylayıram. *Sənsiz* otağımda xəyallarım var. Bu *sənlər* içərisində bir mənlik iddian varmı?

Esselərin xüsusi cümlə formaları vardır. Həmin formalar ekspressivlik yarada bilir. Ekspressivlik-əlamətin yüksək keyfiyyətdə təzahürüdür. Bu əlaməti ifadə edən və esse mətnlərində işlənən dil vahidləri həmçinin ən mənalı, ən təsirli nitq vahidləridir.

Ekspressivliyi şərtləndirən amillər dil strukturunda nitqin biçimini dəyişməsi, yəni başqa bir biçimə düşməsi ilə əlaqədardır. Həmin kateqoriyanı (ekspressivliyi) yaradan başqa bir amil dil vasitələrinin üslubi normalardan kənara çıxmasıdır.

Bu formalardan Mətanət xanım çox uğurla istifadə edə bilib. Bu, linqvistik terminlə desək, paraselyasiyaya məruz qalmış qoşulma cümlələrdir. Əslində bu formalar danışıq dilinin təzahürü kimi meydana çıxır. Hiss olunur ki, şairə nitq aktından, canlı danışıq dilindən məharətlə bəhrələnə bilib. Yəni şairə yazılı ədəbiyyata, poetik aləmə məncə, oradan daxil ola bilib. Ona görə də canlı danışıq dilindəki rəngarəng cəhətlər həmin esse nümunələrində də öz inikasını tapır. Həddən artıq mətnlərdə görünən qoşulmalar əsas söyləmin daxili ehtiyacından doğur, əsas söyləmdə deyilməyən, bir çox hallarda qəflətən yada düşsə də, əsas söyləmdəki fikrə nisbətən daha aktual düşüncəni həyata keçirir. Beləliklə, esseyə dair bu özəllikdən bilərəkdən, ya bilməyərəkdən şairə xanım çox düzgün istifadə edir; fikrin obrazlılığını, emosionallığını təmin edir, rema biçimində işlənən əsas düşüncə aktuallaşdırılmaqla cümlələr arasında əlaqə

yaradır, demək olar ki, tematik proqressiyaya səbəb olur. Qoşulmalar nitq universaliyalarına aid olub canlı danışığın spontan xarakteri ilə birbaşa bağlıdır. Şairənin esselərində bu cür dil vahidləri (sintaktik vahidlər) emfaza mexanizmin başlıca vasitəsi olub, söyləmin müəyyən elementinin intonasiya ilə parçalanmasıdır. Onlar əsas düşüncəni davam etdirdiyi üçün davamedici funksiya daşıyır. Ona görə də ilkin söyləm semantik münasibətdə avtosemantik, qoşulan parça isə sinsemantik səciyyə daşıyır.(Cümlənin avtosemantik və sinsemantik təhlil üsulları vardır ki, bunlardan birincisində cümlə dil vahidi kimi, öz semantik tutumu əsasında ayrılıqda təhlil edilir, ikinci halda isə cümlənin nitq prosesində başqa cümlələrlə əlaqədə istifadə etdiyi məna nəzərə alınır) Məs.: Yorulmuşam, həyat məni yorub, daha yazmaq istəmirəm. Əlvida!... *Bir payız günündə, çarəsiz, qucağında öləcəyim günün arzusu ilə. Sənə qurban olaram, sən özgəsinə qurban olduğun kimi* («Əlvida»).

Şairə ekspressiv sintaksisin digər vasitələrindən də uğurla bəhrələnib. Bunlardan biri elliptik-yəni xəbəri buraxılmış cümlələrdir. Elliptik cümlələr müəllifin təhkiyəsində xarakterik cümlə tipi kimi işlənir. Belə konstruksiyaların ekspressivlik yaratma imkanları şairənin nitq və təfəkkür tərzi, düşdüyü, düşündüyü psixoloji durumlar, ətraf mühitin, qarşılıqlı münasibətlərin və ekstralinqvistik amillərin təsiridir. Bu cümlələr lakonik quruluşu ilə esselərin məzmununu intensiv şəkildə çatdırır. Məs.: İki addım irəli! Bir addım

geri! Yox, getmə, deyir, ağlım. Ayaqlarım məni geri çəkir. Gerimi, irəlimi?

«Düşüncələr»in mətnlərində paralelizm deyilən sintaktik hadisə «çevik situasiyalar»da fəallaşır. Xüsusən də, dialoq parçalarında əlaqə üsulları deyilən zəncirvari və paralel əlaqələr özünü göstərir və paralelizm yaranır. «Qəbirstanlığa səyahət» essesi məhz «gecənin bu vədəsi» fikrinin ətrafında formalaşmış və mətnin qurulmasında iştirak etmişdir:-Sənin də qorxun yoxdu, qadın. *Gecənin bu vədəsində qəbirstanlıqda nə gəzirsən axı?!* Qorxmursan?-Vallah qorxuram. Odur ki, geri baxmıram.

-Sən də gecənin bu vədəsində salam verməyə vaxt tapdın.

-Yaxşı o zaman;

-Gecənin bu vədəsində salam daşıyan pərilər, mələklər və bir də ey əhliquburlar, gecəniz xeyrə qalsın!

Məntiqi-semantik cəhətdən mövcud olan paralelizm əsasında əmələ gələn bu dialoji mətndə öncə ümumiləşdirici bir cümlə verilir, sonra həmin cümlədəki subyekt ideyası paralel cümlələrə məxsus müxtəlif aspektdə interpretasiya olunur, ümumi düşüncə konkret məna ifadə edən cümlə kontekstlərinə paylanır.

Mətanət xanımın esselərinin sənətkarlıq xüsusiyyətlərindən çox bəhs etmək olar. Biri də diqqəti çəkəndir. Müqayisədən bol-bol və özü də qaydasında istifadə edə bilib. «Mənlər...» Bəzən qarşımda üç qadın dayanır; sarışın, əsmər, ağbəniz. İlahi, deyəsən üçü də mənəm axı?! Hə, üçü də mənəmmiş! Amma bu mənlər daxilimdədir. Həmişə mənlə dərdləşirlər, darıxmağa

qoymurlar. Biri saçlarımı darayır, biri ətirlərə qərq edir, digəri isə dərdlərimi bölüşür, sonra da əllərimdən tutub məni xəyal dünyasına aparırlar.

Bilirsinizmi, onlar yanımda olanda dünya gözlərimdə necə də gözəlləşir?! Sanki boşluğa düşürəm; səmanın ənginlikləri ayaqlarım altında, musiqi sədaları qulaqlarımda, təbiətin gözəl çalarları gözlərim önündə dayanır. Fəza cismləri isə qarşımda rəqs edirlər. İlahi, istəmirəm ki, bu qadınlar məni tərk etsinlər.

Mətanət xanımın esselərinin qapanmasında, bağlanmasında işarə əvəzliklərinin rolu böyükdür: Deyirlər, hərənin içində *bir şeytan* gizlənib. *O şeytan ki,* xoş arzuları, amalları, düz sandığımız əqidəmizi bizdən bəzən oğurlayır. *O şeytan ki,* bizi düz yolumuzdan daima azdırmağa can atır. *O şeytan ki...*Təəssüf ki, bəzən bizi şeytan çağırır. Allah o gündən saxlasın!.

Mətanət xanımın düşüncələrində dünya konsepti mühüm yer tutur. Haqlı olaraq bir essesində dünyanı boş, çürük sayır. Dünya çürük olduğu kimi ona sığınanların bəziləri də çürükdür.

Ümumiyyətlə, Mətanət xanımın esselərinin məna tutumu çox genişdir. Məsələn, «yük» sözünün həm həqiqi mənasından (Maşın döngəni buruldu. Yükü ağır idi), həm də məcazi mənasından (Bəlkə də indiyə qədər bu ağırlıqda *kədər yükü* daşımamışdı) çox uğurla, eyni zamanda eyni kontekstdə istifadə edə bilmişdir.

Mətanət xanımın düşüncələrinin mövzusu təbiətdir, təbiət hadisələridir: Payız, ömrümə xoş gəldin,

nur dənəciklərinlə. Buludlar yağış yüklüdür. Nur dənəciklərin həyatın barıdır.

Bu düşüncələrin mayasını sevgi, məhəbbət (bəzən də nakam məhəbbət) təşkil edir: Adam sevdiyini heç kimin ayağına vermir; Sevdiyim üçün səni ağrı-acımla yükləmək istəmədim;

Mətanət xanımın düşüncələrinin mövzusu adı çəkilməyən qadındır. Elə bil bu qadın şairənin özüdür. Həmin qadın muzeydə, qəbristanlıqda, dəniz kənarında və b. yerlərdə görünür, gördüyü yerlər haqda fikir və düşüncələrini bölüşür. O qadın daxili zülmətinə bürünür, bununla belə aydınlıq içərisindədir, Ulu Tanrısını düşünür...

Nədənsə, Mətanət xanımın obrazları qeyri-müəyyəndir, ismi-pünhandır: Onun dağılmış düşüncə-lərində *Qoca, qadın, ay adam, allah bəndəsi...* hər hansı konkret fərdi xatırladır. Qoca onun pünhanıdır, qoca onun həmdərd olduğu bir kimsədir.

Mətanət xanımın düşüncələrinin ana xəttini həyat, onun gözəllikləri təşkil edir: Budur, ümidlə pəncərəmi açır, səhərin gözünün içinə baxaraq səmanın üzünə gülümsəyirəm. Və ciyərdolusu nəfəs alıram. İlahi, həyat nə gözəldir! Yaşamaq necə şirinmiş! Atılmağıma baxmayaraq.

Ümidə bel bağlamaq həmişə özünü doğrultmur. «Ümid» konsepti onun esselərində bir ömür boyu axtarılan və tapıla bilməyən mücərrəd bir varlıq kimi tərənnüm olunur. Ümid namərddir...Ey ümid gəzən

bədbəxtlər, özünüzü aldatmayın boş ümidlə. Mən ümidi bir ömür boyu axtardım, tapmadım. Yoxdur, qaçıb!

Oxucu düşünür-Mətanət xanımın qələmə aldığı bu həyat hekayələri haqqında. Bu hekayələrdə bir qadının həyat eşqi, məhəbbəti, kədəri, müxtəlif zamanlardakı ağrı-acıları əks olunub. Bunlar onun duyğuları ilə rəngarəng fikirlər doğurur. Bir tərəfdə sevinc, o biri tərəfdə iztirab. «Ağ ayaqqabı» şeirlər kitabının çapından alınan sevinc və iztirab kimi. Bu epitetdən ibarət başlıq (kitabın adı) mənə elə gəlir ki, çox həqiqətləri üzə çıxarır. Gözümə müəllifin kitabının əvvəlindəki fikri sataşdı: "Şair və yazıçı yalnız təxəyyülünün gücünə sığınmamalı, idrakının, təfəkkürünün kürələşməsi üçün öncə ətraf mühitini seyr və dərindən müşahidə etməli, mümkün qədər dünya səyahətinə çıxmalıdır. Lakin öz orbitindən çıxmamalıdır".

Çox əla düşüncədir. Bu gün isə orbitindən çıxanlar (bizim ağızda çızığından çıxmaq deyirlər-İK) çoxalıb, hörmətli şairə. Siz öz poetik enerjinizlə (həm şeir, həm də esselərinizlə) onlara qarşı tutarlı sözünüzü deyə bilirsiniz.

Mətanət xanımın bu esselərin içərisindən seçilərək ayrıca aforizm, hikmətli, müdrik kəlam təşkil edə bilən misraları var. Adamın çox xoşuna gəlir: Dilənəndə yalvararlar, həddə-qorxu gəlməzlər; Mənə ağa deyirsən? Ağa olanın sözü keçər; ətrafına yaxşı bax, kimsələrdən qaçma; Boş yerə yetim saxlamağa gəlməmişəm ki. və s.

Beləliklə, Mətanət xanımın esseləri bizdə müəyyən təəssürat yaradır, bu həssas və təsir qabiliyyəti yüksək olan janr indivudal təsirə malikdir və müəllifin

düşüncəsini, fərasət və fəhmini ölçüb-biçir, götür-qoy edir, predmetin konkret səbəbini mətndə şərh edir. Esselər şairənin- müəllifin düşüncə mədəniyyətini üzə çıxarır.

Beləliklə, «Düşüncələr»dəki dinamizm, kompakt, intensivlik, sintaktik deformasiyalar, sıxılmalar, kompensasiyalar, ritmik-sintaktik rəngarənglik onun bədii dəyərinin, bədii sintaksinin əsas keyfiyyətlərindən sayıla bilər.

İsmayıl Kazımov
filologiya elmləri doktoru, professor,
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun
«Müasir Azərbaycan dili» şöbəsinin müdiri.

Müəllifdən

Yeni musiqi səslənir. Bu mahnını bəstələyən duyğularım, çalan ürəyimin telləridir. Düşüncələrimin zərif barmaqları ürəyimin tellərini asta-asta dilləndirir-kaman kimi. Xəyallar çırpınır, qəmli notlar üzərində. Lakin ürəyimin telləri xoş ovqata köklənir, sevgi nəğməsin çalmaq üçün.

- Çal, aşıq çal, səslərini eşidir qulaqlarım.

Düşüncələri qələmə alıram, yuxarıda qeyd etdiyim kimi ürəyimin çaldığı yeni mahnı ilə. Yeni həyata xoş gəldin, Ulu Şirvanlı.

Vital düşüncələr

Ah, qadın...qadın...

Ah, qadın, qurbanlıq qoyun kimi nə çırpınırsan zamanın döngələrində. Haradan düşmüsən həyatın fırtınasına, nə gəzirsən zamanın burulğanında? Bəlkə səni zaman təkəri diyirlədib həyat fırtınasına atıb. Sən isə düşüncələrin əlindən hara düşdüyünün fərqində deyilsən. Düşün...düşün...

...Və düşündüyün üçün Allahına borclusan. Diz at qadın, səcdə et, səni Yaradana təşəkkür et ki, səni yaradanda duyğularını kəm etmədi. Düşün, qadın düşün...

Yaşa və düşün ki, nə edəcəyinə qərar verə biləsən.

Dərketmə

Özünü dərk etmək istəyirsən, sənin təfəkküründə həyat incəsənəti var, deyəsən. Amma öncə həyatı öyrənməlisən. Bilirəm ki, həyatı öyrənmək üçün yaşamaq gərəkdir. Özünü dərk anlamına gəldikdə isə sənə elə gəlmirmi ki, şairlər gözəl rəssamdır. Öz düşüncə və fikirləri ilə həyatın rəsmini çəkirlər.

Hə, qadın, buyur, həyatın rəsmini çək...

Burax əllərimi

Axı nə istəyirsən əllərimdən?! Burax əllərimi qoy çıxım gedim.

...Görürsən, şər də qarışdı. Ah, necə yolumdan eylədin məni. İndi qorxa-qorxa, indi zülmlə, yarıb qaranlığı necə gedəcəm?! Tökmə gözlərindən sellənən qəmi, sən Allah, yolumdan eyləmə məni.

Nə istəyirsən de, barışaq, demə. Burax, burax, əllərimi qoy çıxım gedim.

Qayıtmayacağam

Ayrılmalıyıq! Üzünə belə baxmadan, üzümü geniş prospektə tutaraq kədərimi arxamca sürüyə-sürüyə, pərakəndə addımlarla səndən ayrılıram. Arxamca bağırma. Bağırma, Allah eşqinə. Məni qaytara bilməzsən!

Mələklər

Gecənin bu, vədəsində kabusa dönmüşəm. İlahi, gecənin öz gözəlliyi varmış! Hündür, vahiməli hasar dibindən ötərkən kölgələr divar boyu sıralanır. Qəribədir, axı qaranlıqda kölgə olmaz. Amma budur, üç kölgəm məndən qabaqda gedir. Elə zənn etdim ki, kimsə arxamca gəlir. Geri çevrilirəm. Kimsə yoxdur. Məni vahimə bürüyür. Qorxuram. İçimdə şübhələr baş qaldırır; bu zəmanədə cin- şeytanmı var? Əstağfurullah! Amma yox, cin- şeytanın da kölgəsi olmur axı! Və birdən hasar bitir, Ayın aydınlığı, nuru ayaqlarım altına səpələnir. Qəribədir, sanki, hasar Ay işığının qarşısını kəsibmiş.

Qulaqlarıma dolan pıçıltılardan mənə elə gəldi ki, gözəl üzlü gecədə göy üzündə mələklər pıçıldaşır. Bəlkə də mələklərin nuru imiş ayaqlarım altına səpələnən.

Gedəcəyəm

Qayıtdım. Qarşındayam. Salam. Bu da mən! Gəldim, gec də olsa. Öz evimə gəldim. Gəldim sənə, ocağıma qovuşmaq üçün. Vidalaşmadan bu gecə yenidən sənə əlvida edəcəyəm.

Budur, gecə ötdü. Alatoranlıqda üzümə baxır, pıçıldayırsan; - Sənə qurban olaram, getmə!

-Yox, bu gün səni tərk edəcəyəm! Arxamda nə qalırsa, hamısını sənə halal edirəm.

Sarı çiçəklər

Hər şey olduğu kimi gözəldir, bu qapqara gecə kimi, deyirəm. Əlindəki, bu sarı çiçəklər mənimdir? Lap yerinə düşüb. Axı bu gün ayrılacağıq!

Nə dediyimi anlamırsan? Ah, bir bilsən, düşüncələrimdən xəbərdar olsan...Heç bilmirəm məndən sənə nə qalacaq? Acı, yoxsa şirin xatirələr?!

Ver o çiçəkləri mənə, ver və həyatımdan get!

Hara

Sənə qurban olaram! Getmə! Sənin üçün darıxacağam. Yox, daha doğrusu səni istəyəcəyəm, ölənə qədər, -dedin.

Gecənin qaranlığında ayaqlarım məni səndən ayırır. Səndən ayrılarkən ayrılığın səbəbini ayaqlarımda

görürəm. Bilmirəm özümə acığım tutsun, yoxsa ayaqlarıma? Hara gedirəm, bu ayaqlar məni hara aparır?

Mənsiz

Geri boylanıram. Qaranlıqda işıqlı, mavi tül pərdəli pəncərəmdən tam aydınlıqla görsənirsən. Elektrik işığının aydınlığı içərisində səni bürüyən qəm pərdəsidimi? Hə, yəqin yenidən qovuşanadək nisgil pərdəsi hördün bir anın içərisindəcə.

Bilirəm, məni gözləyəcəksən, ömür boyu pəncərədən baxmaqla. Allah Mən adlı sevgini öldürsün! Həsrətdən, kədərdən başqa sənə nə verə bildim ki?!

Qoyma

Bacarmadım. Bu od, bu da ocaq... Yetim qaldı mənsiz onlar. Mən anasız qoydum onları, barı sən atasız qoyma.

Ürəyim azadlıq istəyir

Hara gedirsən başılovlu? Tezliklə qaranlıq düşəcək, yeri get evinə. Sənin nə işin var axı metro stansiyasında. Ünvansız mənzilə getməkmi olar?! Bayaqdan min fikir gəlib ağlıma, görəsən hara gedim?

Gör ətrafda nə qədər insan var. Hamısı da yad sima. Kaş bir nəfər tanış çıxaydı qarşıma. Bir neçə kəlmə kəsəydim onunla.

Get

Növbəti stansiya 28 may. Qatardan düşüm-düşməyim? Düşsəm yaxşıdır. Bəlkə qayıdım evimə? İçimdən bir səs; -yox, qayıtma, deyir. Deyəsən, ayaqlarım məni çəkib harasa aparır axı, hara gedirəm? Əşi nə bilim, ayaqların hara aparırsa elə ora da get.

Qayğılı düşüncələr

Salsa

Musiqi sədasından simi qırılmış kaman kimi titrədim. Bura haradır? Qoy görüm buranın qapısı hardadır. Binanın tininə dönürəm. Qarşıma dəstəksiz dəmir qapı çıxır. Astaca qapını itələyirəm. Mərmərə tutulmuş pillələr məni zirzəmiyə yola salır. Sağ tərəfdən zərb alətlərinin səsini xatırladan ayaq səsləri. Geniş aynalı zalda qara libaslı, uzun boylu oğlanlar milli musiqimizi öyrənirlər. Oğlanlardan bir mənə yaxınlaşır:

-Nəsə lazımdır? -soruşur.

-Sadəcə baxıram. Bəs qızların otağı haradadır, deyə oğlana sual verirəm.

-Sol tərəfdə.

Bu da qızların məşq zalı. Hündür boylu qızın əlindəki nədir elə? Deyəsən, pişikdir, yox, itdir. İt və ya pişik olduğuna qərar verə bilmirəm. İlahi, bu nədir axı, it ya pişik? Bu yaratdığın hansı məxluqdur?

Lap başımı itirdim. La İlahə İlləllah. Nə qəribə məxluqdur bu?! Bu boyda auditoriyada bu qədər qızlar qaldı, ağlım bu qəribə məxluqa ilişdi. Bu an qız əlindəki heyvanı yerə tulladı. Yerə düşməyindən pişiyə oxşadı. Axı qulaqları it qulağıdır. Gör, necə də sallanır gözünün üstünə. Xal-xal dərili...lənətə gələsən kor şeytan!

Qəribə musiqi səslənir. Elə o andaca totuş bir oğlanla arıq bir qız meydana atıldı, qıvraq hərəkətlərlə oynamağa başladılar.

-Bu nə rəqsidir deyə, yanımda dayanan çəlimsiz qızdan soruşuram.

-Salsa rəqsi.

-Nə rəqsi?

-İtalyan rəqsi.

-Nə anlam daşıyır?

-Qədim italyanların hər hansısa salatlarındansa götürülmüş ad,- deyə qız cavab verir.

Getsəm yaxşıdır. Qaranlıq düşüb deyəsən, qapıdan çıxıram. Hər yan zülmətə bürünüb ki?! Dayan, bir görüm buraya vurulan lövhəyə nə yazılıb. Azərbaycan Dövlət Neft Akademiyası "Gənclik" rəqs studiyası.

Getmə

Ayaqlarım bədənimi lövhənin qarşısından çəkib apardı. Yenə hara gedirəm. Dayan, zəng et rəfiqənə. Çantamı eşəliyib telefonumu çıxardıram. Buna bax ey, zibilə qalasan! Heç bircə dəfə də olsun zəng gəlməyib. Kimə gərəksən axı?!

Xəttin o başından yorğun qadın səsi eşidilir. -Alo, hə, gəl gözləyirəm. Ayaqlarıma baxıram. Yox, getmə, -dedi, ayaqlarım.

Acmışam

Yeri ayaqlarının aparacağı yerə. Ayaqlarım da məni elə dartır a. Budur, bu da Dəniz Kənarı Park. Gecənin qaranlığında kimsəsiz sahil ləpə döyürdü özüyçün. Parkda yerləşən Bakı restoranında əyləşən qonaqlar bərq vuran işıqlar içərisində aydınca görsənirdi.

Xəyallarımda özümü restoranın içərisində hiss etdim. Düşündüm;

-Acmışam. Amma pulum yoxdur. Onda ora baxma.

Uzaqdan eşidilən gəmi fiti məni xəyallarımdan ayırdı.

Ehtiyac

Palıd ağacının yarpaqlarını dəniz küləyi gətirib ayaqlarıma dolaşdırdı.

-Hə, xoş gəldiniz! Onsuz da danışmağa adam tapmıram. Külək sizi hara aparır belə? Getməyin, dayanın! Eh, onlar da getdilər.

Yenə telefona sarılıram. Cavab yoxdur. Səni lənətə gələsən! Beş dəqiqəlik kiminləsə danışmağa ehtiyacım var.

Ah, zavallı canım. Kimim var ki, kiminlə də danışam?! Heç getməyə də yerim yoxdur!

Şəkil

Qaranlıqda dəniz nə gözəl sayrışırmış, Ay işığı altında. Soyuqdan əllərimi ağzıma təpirəm.

Səs... Kiminsə ayağı altında qalan xəzəllərin xışıltısı.Yaxınlaşan addım səslərindən qorxub çantamı sinəmə sıxıram. Yoğun gövdəli ağacın arxasından əlində aparatı olan, nazik bədənli, cavan fotoqraf çıxır.

-Şəklinizi cəkim?

-Pulum yoxdur.

-Cəmi 1-cə manata.

-Yaxşı, çək.

-O zaman işığa gəlin.

-Yox, dənizin qaranlıq rəsmini arxa planda istəyirəm.

Sonuncu ümid yerim olan manatı da şəkil çəkənə verdim.

Öz-özünü qınaq

Dəniz, qaranlıq və mən. Əcəb maraqlı kom-po-zi-siyadır. Bəs, qorxu, tənhalıqdan qorxmursan?

Düzünü boynuma alsam, qorxuram. - Onda çıx get!

-Hara?

-Cəhənnəmə! İsti od-ocağından niyə didərgin düşürsən axı?!

Düşüncə yağışı

Ömürdən gün

Yağış yağır. Küçələrdə daşan sellər nə qəmimi yuyur, nə də sürükləyib aparır. Günəş də küsüb. Neçə gündür çıxmır. Səmanın üzünü qəm pərdəsi alıb.

Dünya üzünə qaranlıq çöküb. Bəxtimə qəm çökən kimi.

Darıxıram

Nə üzünü görür, nə də səsini eşidirəm. Ah, darıxıram, səsini eşitmək istəyirəm. İçimdən qopan bir səs;

-Zəng et, deyir. Düşünürəm; qərar verirəm. Olmaz, deyirəm. İçimdəki səs şeytandır, sanki, bağırır;

-Nə durmusan, tez ol, zəng et!

Gizli nömrəylə rəqəmləri yığıram. 055...rəqəmlər telefonun ekranına səliqəylə düzüldükcə həyacanım artır. Səs eşidilir.

-Alo...alo...Susuram.

-Sənmisən, gülüm, qayıt evimizə!

İçimdəki səs;

-Cavab vermə, sus,-deyir. Yenə susuram. Sonra isə özümü danlayıram. Nahaq səsimi çıxartmadım. Darıxıram.

Gecə

-Bu gecə yaman darıxıram. Bu ki, sənin evin deyil. Özgə yerdə darıxarsan da- deyə düşündüm.

Göz yaşlarından nəmlənmiş gözlərimi silə-silə pəncərəyə yaxınlaşdım. Yağış neçə gündür kəsməyib. Eh, bu yağış dərdimi yumadı, nə də dərdim sulara qoşulub getmədi. Amma bu yağış bağçanı sevindirdi. Xurma ağaclarındakı xurmaları tər-təmiz yudu.

Səhər açılsaydı...Bəlkə Günəş də çıxar...Eh, bircə bu gecədən də çıxa bilsəydim...

Şirin bir yuxu

Bu, bir yuxu idi, şirin bir yuxu. Sən də, mən də oyandıq artıq yuxudan. Bu sevda bir gün sona yetməliydi, yetdi də. Ayrılığı saldığım üçün məni bağışla. Bu ayrılıq bu gün də baş verməsəydi, açılan sabahların birində mütləq baş verəcəkdi.

Yəqin, sən də darıxırsan? Darıxma mənim kimi. Zənn et ki, yatmışdın. Yatdın və şirin bir yuxu gördün.

Susan sevda

Bir zamanlar dəmir körpü üzərindən Allaha ucalan sevgimiz bax, bu gün əzabların pəncəsində necə də çırpınır. Cavabsız qalan zənglərin göz dağımdı. Zəng etmə. Onsuz da telefonu açmayacağam.

Bu lənətə gəlmiş sussaydı…Nəhayət ki, telefon da susdu. Ah…h…sevgimiz də susdu.

Həmdərdlim

Salam, payız, salam, yağış! Salam, nur parçası, xoş gəldin! Nə bildin ki, bu gün qəmliyəm? Nə bildin ki, bu gün özüm kimi gözüyaşlı birisini gəzirəm dərdləşməkçün?! Gəl, dərdləşək.

-De görüm, buludlara nə olub yenə? Dinmirsən. Çünki, hələ də ağlayırsan. Hava bu gün tutqundu, mənim kimi. Yəqin bir az sənə, bir az da mənə pərişandı.

-Hələ ağlayırsan? Ağlama, həmdərdlim, ağlama. Susursan…Danışmaq istəmirsən? Onda mən danışım sən qulaq as:

-Ah, gözüyaşlım, ah, dərdi dərdimə bənzəyənim. Sənin göz yaşların kainatın həyatvericisi, mənim göz yaşlarım isə öldürücüsüdür.

Hələ qəzəblənmiş buludlara bir bax! Çax, başına dönüm, çax, öldür məni tənhalıqdan qurtarmaqçün.

Zəbun

Kədər ətrafımı sarıb. Yağışdan islanmış tül pərdəm sanki pərişan halıma acıdı. Yelpiklənərək kədərimi qovmaq istəsə də, gücü çatmadı. Zərif furujerli qanadlarını çırpıb yanlarına saldı.

Necə də bədbəxtəm. Halbuki taleyim xoşbəxtliyə layiqdir. Cılız, balaca vücudum ömür boyu kədərlərlə döyüşdü. Nəhayət dözmədi. Zəbun oldu. Ah, zavallı vücudum!

Cazibə qüvvəsi

Kədərin çaldığı zəfər marşına qulaq asmaq nə qədər dözülməzmiş. Maqnitin cazibə qüvvəsinə dartılan kimi hələ də kədərin qüvvəsinə sarı dartılıram. Qəmə sürüklənə-sürüklənə üzümü səmaya tuturam:

-Tanrım, niyə məni bu boyda şərqin kədər mən-təqəsinə çevirmisən?! Cavab gəlmir. Açıq pəncərəmdən üzümə düşən qəmli yağış damlası kədərini kədərimə qarışdırır.

Ağlayan düşüncələr

Qızılı payız

Yağışın anası payız, «Gözəlsən! Nə gözəl qızılı rəngli, çalarlı paltarın var!», deyirlər sənə. Bəs niyə demirlər ki, nədən bu qədər qəmlisən? Niyə hər zaman ağlayırsan? İçi özünü, çölü özgəsini yandıran payız, göz yaşların göz yaşlarıma necə də bənzəyir. Qızılı payız, de görüm, mənimlə razısanmı?

Sus

Yağışın dam üstünü döyən damlaları sanki mənə: - Ağlama, ayrılığı özün istədin. Sus və döz! Sus artıq, deyir. Ah, susa bilsəydim... İçimdən qopan nalələrin titrəyişi payızın havasına toxunar-toxunmaz pəmbə buludların arasında əriyib yoxa çıxır.

Bəlkə də…

Dünyanın qapısı üzümə bağlanıb sanki. Bu bağlı qapının rəzəsindən süzülən, sanki azıb gələn işıq selinə ümidlənirəm. O işıq selinə ki, ölən arzuları dirildəcək, sönmüş arzuları alovlandıracaq. Ah, danışdıqlarıma özüm inanımmı, Tanrım?! Bu baş verəcəkmi? Nə bilim, bəlkə də…

Di, salamat qal

Yağış kəsir. Ağlayıb doydu, deyəsən...

-Gözüyaşlı, gedirsən? Di, salamat get. Get, dərdi dərdimə bənzəyənim.

Zərbə

Vurduğun zərbənin necə güclü olduğunu bilmədin. Səndən aldığım zərbədən bir ay özümə gələ bilmədim. Məni dəyişmək?!

Ovunmağa ehtiyacım var. Ağlamaq dərdimi ovutmur. Dərdləşməyə ehtiyacım var. Ey, sənin ləyəm... Sən isə... Eh nə isə...

Niyə gəldin

Atılmış kimi hiss edirəm özümü. Doğmalarım məni atan kimi, sən də məni at. Buna da dözəcəyəm. Sənə güvənirdim. Fikirləşirdim ki, sən dağlar oğlusan?! Dağ kimi də vüqarlı olmalıydın! Sənə güvəndiyim dağlar...

Qəribədir, bütün olanlardan sonra yenə səndən ayrılıb, getmək istəmirəm. Nə olsun ki, sənə güvənirəm, sən mənə güvənmə! Çıx get, Allah eşqinə. Niyə gəldin axı arxamca?!

Qaldı

Sənə taleyimdən o qədər epizodlar danışmışam ki... Amma o qədər danışmadığım, ürəyimi dəlmə-deşik edən deyəcəklərim vardı ki... Susma, deyirsən. Hə, düzdür danışmalıyam.

Dedim, axı ürəyimi deşən o qədər deyəcəklərim qaldı ki...

Xatirə dalğası

Qadın düşünür; bir ömür boyu o qədər döyülmüşəm ki. Allah o günləri ömrümdən silib atsın. Ölmüş nişanlımın meyiti yanında da döyüldüm. Ölümünün səbəbkarı olduğum üçün. Heç soyuq üzünü də göstərmədilər mənə.

Boş yerə yetim saxlamağa gəlməmişəm ki. -Gözəlsən! -demişdin, nə olsun ki, taleyim ki, gətirmədi! Mən səni bu qədər niyə istəyirəm, deyəndə; nə bilim demişdin. Əslində, mən bilirdim...

Eh, bunlar niyə yadıma düşür ki?! Hə, onu deyəcəkdim axı sənə...

Qaç...qaç...

Bir ömür boyu döyülməkdən, söyülməkdən, danlaqdan qaç... qaç...qaç... mən bədbəxt taleyimdən hara qaçım axı? Gülməli olsa da doğulan günümü dəqiq bilmirəm. Amma ölən günümü biləcəyəm. Bir payız günündə, çarəsiz halda qucağında öləcəyəm.

Eh, hardan gəldin axı taleyimə?!

Zaman təkəri

Bilirmisən, anam məni təkər üstündə doğub. Doğulan an məni yekə təkərlərin arasından çıxarıb, zaman təkərlərinin üstünə tərsinə qoyublar, sanki. Və o

vaxtdan bəri zamanın çarxı məni tərsinə dolandırıb durur. Bəlkə də bu üzdən işlərim düz gətirmir.

Bu kimin taleyidi?

Nənəm məni sevməzmiş. Mənə uğursuz deyərmiş, mən doğulan kimi iki yaşlı bacım öldüyünə görə. Amma anam deyərdi ki, sən doğulandan sonra var-dövlət başımızdan töküldü. Deməli, mən heç də uğursuz deyiləmmiş! Mənə qoyulan doğma adım yalnız yaxınlarım tərəfindən işlənsə də, sənədlə ölən bacımın adını daşıdım. Bəlkə, taleyini də daşıyıram. Ad yad, tale yad - özümü tapa bilmirəm.

Keçmişə səyahət

Hər gecə əllərimi gizlicə göyə qaldırıb yalvarır, kimsənin gəlib məni aparmasını Allahdan diləyirdim. Kaş o zaman gəlib məni aparaydın, canım. Səni görəndən sonra hər şey dəyişdi. Səni çox, sənin bilmədiyin qədər çox istəyirdim. Fikrimi çaşdırma, daha indi heç kimə bənzəmədiyinə görə yox, səni – özünə bənzədiyinə görə sevmək istəyirəm. Və sənə yaxın olmaq istəyirəm.

Qorxmuram

Demişdin, istək qorxunu üstələyir. Mən o qorxunu aşdım, sən isə aşa bilmədin, canım. Bu sətirləri yazarkən yalqızam. Amma daha qorxmuram. Sən mənə tək qalanda qorxma demişdin, axı.

Yetim

Anasızlıq, yetimlik necə olur canım? Yəqin mənim çarəsiz halım kimi. Sən anasız, mən analı yetiməm. Mən öyrənmişəm yetimlərə ana olmağa. Sənə də ana olmaq istəyirdim.

Əlvida

Yorulmuşam, həyat məni yorub, daha yazmaq istəmirəm. Əlvida!... Bir payız günündə, çarəsiz, qucağında öləcəyim günün arzusu ilə. Sənə qurban olaram, sən özgəsinə qurban olduğun kimi.

Son görüş günü
08.01.2011
Saat 22:59- dan 3:15 dək
İmza: Tanrı və bəndə döyən

Təmiz çəkmələr

Gözlərim tərtəmiz çəkmələrinə sancılır. İndi daha onları mən təmizləmirəm. Hə, indi onun çəkmələri çox şeydən təmizdir!

Sən Allah, bir buna bax, baxışlarım necə də sancılıb qalır tərtəmiz çəkmələrində. Gül kimidir çəkmələri. Məndən sonra kim təmizləyir axı onun çəkmələrini?!

Ləyən

O qızıl ləyəni bəri gətir görüm. Bu dəqiqə ona qan qusacağam! Bu qanı qusa bilsəm içimə axıtdığım göz

yaşlarından da azad olacağam. O yaşlardan ki, qəhərindən boğazımı yandıra-yandıra içimə ağlamışam.

Bəs bu yetimlər , bəs onlar necə olsun?!

Özüm özümə qalsaydı nə vardı ki…Ah, bu ürək!

İztirab

Yox, belə olmaz, ayrılmalıyam! Ah, iztiraba bax. Ayrılmağı da bacarmıram. Nə zaman ayrılmağa qərar verir, səndən ayrılıb gedirəmsə, elə o andaca sənə yenidən qovuşmaq istəyi məni alov kimi qarsır. Səni lənətə gələsən!

Yenə səninləyəm. Qapını bərk çək, qoy iztirab dörd divar arasındaca əriyib yox olsun. Hə, bax belə! Bu otaqda odla-su arasında qalan şübhəli həsrətin odu var, indicə alışacaq.

Əsrarəngiz səs

Bu nə səsdi? Mənlə danışan kimdi? Tanrım, eşidilən bu əsrarəngiz səs dərgahından süzülürmü?

Səs:-Ey…y… sən…

Bir-biriylə pəncələşən buludların arasından qulağıma süzülən səsin şirinliyi necə də məstedicidir. Sanki havadayam, səsin sehrində süzürəm.

Səs: -Ey ruhi iztirabları tükənməyən qız, niyə özünə bu qədər əzab verirsən? Ürəyinin səsinə qulaq as. Hisslərini gizlədib yaşamaq, bil, yaşamaq deyil! Cismindəki ruhunu incitmək, əzaba, dustaqlığa məhkum etmək günahdır.

Ey ruhunu əsir edən, çöhrəndə üzüntü var. De, bu üzüntü kimin üçündür? Ey əzabların məngənəsində

sıxılan, daha əzablara sığınma. Sən əzablara sığındıqca zaman dəyirmanı səni daşları arasında ovudacaq, daha sonra zaman küləkləri səni sovuracaq.

Artıq zamanıdır, qop iztirablardan. Xoşbəxtliyə çatmaq üçün sənə yalnız bir şey gərəkdir: bu, əsrarəngiz, səsin sehrinə düşmək:

- Gəl, gəl, səsin arxasınca, gəl! Ey…y… sən, ….gəl…l…

İnad etmə

Dur, aynaya bax. Gör nə qədər gözəlsən! Bu gözəlliyi ziyan etmə. Bu dünyada gözlə görünməyən hissiyyatın sənin ülviyyətindir, üsyan etmə. Daxili harmoniyaların xaricinlə çarpışmaqdadır. Zərif, zəif olsan da döyüş. Qələbə inadkarlarındır. Döyüşdükcə iradən bərkiyəcək. Müvəffəqiyyət kölgəsi arxanca düşən zaman sevinc işığı səni saracaq. İşıq qara kölgələri qovacaq. O zaman işığa bürünəcəksən.

Payız küləyi

Payız küləyi ruhumu köksümdən çıxarıb aparacaq. Bu külək sənin ətrini ətrafa dağıdır.

-Burada olmusan?! Hə, düz tapmışam ətrini hiss edirəm. Deyəsən, buralardasan?! Hardasan? Ətrafa boylanıram. Gedimmi, görəsən?

- Otur, bu oturacaqda, heç hara tərpənmə deyir, ağlım. Amma ürəyim küləyə qoşulub arxanca getmək istəyir. Külək məni sürükləyir.

- Qayıt, əmri verir, ağlım.

Geri dönürəm. İndi isə otur, -deyir.

- Yox, getmək istəyirəm. Daha doğrusu külək məni aparır.

Ağlım soruşur: -Hara gedirsən?

-Qoy küləkdən soruşum...

Lal düşüncələr

Fikirləş

İki addım irəli! Bir addım geri! Yox, getmə, deyir, ağlım. Qoy uşaqlarını özü saxlasın! Yox, fikirləş, getmə!

La-İlahə-İlləllah! Sübhan Allah! Qərar verə bilmirəm. Nə vaxt ki, səndən bircə addım geri çəkilirəm, o andaca iki addım sənə sarı dartılıram. Elə indiki kimi. Səndəki bu cazibə qüvvəsi nədir belə?!

- Qalxıram, bir addım irəli! Dayanıram. Ayaqlarım məni geri çəkir. Gerimi, irəlimi?

Tale

Salam odum-ocağım! Bu da mən! Mənsiz darıxmışdınızmı? Boynuma alım ki, mən darıxmışdım.

-Kimdir mənimlə danışan? Üstümə qurd tək gələn divarlarmı, yoxsa mənim üçün darıxan otaqlarmı?

Sizi darıxdıran nə oldu. Sükut və sükunətmi?

-Nə dedin barışdınmı taleyinlə? -soruşdunuz.

-Bəli, taleyimlə barışdım, odum-ocağım!

Salam, Qoca

Səni hər gün görürdüm. Görürdüm, amma...

Salam belə vermək istəmirdim sənə, Qoca. Baxmayaraq ki, sən mənə hər gün salam verirdin. Verirdin, amma...

Kimsən, nəçisən, buralarda nə gəzirsən? Nəyimə gərək? Düz on il salam verməkdən yorulmadın, Qoca.

Budur, illər keçib, sən yenə də salam verirsən. Bu illər səni bir az da qocaldıb.

-Hə, yaman qocalmısan. Eh, Qoca, bu gün yenə salam verdin. Və nəhayət ki, on ildən sonra sənə Allah salamı verirəm.

-Salam, Qoca!

Sən və təbiət

Yazın günəşli vədəsində, bağçamda quşlar qanad çalır və civildəşirlər. Gözlərini süzən günəşin şəfəqlərinin köməkliyi ilə əkdiyim toxumlar cücərir. Gücsüz gövdələri torpaqdan Günəşə boylanır. Müxtəlif növlü qızılgüllər yanaqlarına qan çiləyiblər təbiətin rəngindən sanki.

Budur, məhəccərə söykənib, çiçəklərə tamaşa edirəm. Bu nədir qərənfillərin yarpaqları arasında qızaran?

-Ah, zavallı! Kiçik, balaca karlik qızılgül?! Sən ki, burada boğulursan. Biçarə Günəşə sarı boylanmaq istəyir. Lakin qərənfillərin uzun və qalın gövdəsi arasından qalxa bilmir. Gözlə, sənə kömək edəcəyəm, bu dəqiqə.

-Bax, belə, deyərək, qərənfil budaqlarının bəzilərini yolub yerə tökürəm. Sanki balaca qızılgül məhkumluqdan azadlığa çıxır. Necə də gözəlsən! Nə qəribə rəngin var?! Hə, sən naringi rənglisən. Çox füsünkarsan, cazibəli qadın kimi. Buyur, təbiətin qoynuna. Sən də mənim kimi yeni dünyana xoş gəldin.

Axtarma

Salam, Qoca. On ildir ki, çırpınırsan. Və nəhayət.... Nə isə ki, yaşının bu vədəsində həmsöhbətini tapdın. Tapdın, amma... Bu illər ərzində günlərini zamanın küləklərinə qurban verdin. Sənə elə gəlmirmi ki, gecikmisən? Gecikmisən Qoca! İlahi, nə axtarırsan axı sən? Yeni duyğularınımı, ya itən illərinimi? Nə fayda Qoca? Axtarma...aaa.aaa....!!!

Nəyinə gərəyəm axı?!

Sənin səsindir? Yad səsinə oxşayır. Daşa dönmüş, niyə daşlaşdın, soyuqlaşdın mənə qarşı? Hara gedirsən? Məni də apar. Apar, qurbanın olum. Aparmırsansa, heç olmasa yaddaşında götür məni.

Gedirsən deyəsən, mənə demirsən,
Nə bilim haraya səfərin sənin?!
Özüm unutmuşam, qəlbim unutmur,
Qoy olsun əzizim, xəbərin sənin.

Unutmaq istəyirəm

Özümə yaman acığım tutur səni unuda bilmədiyimçün. Unutmaq istəyirəm...yerişini, gülüşünü, tərzini. Unutmaq istəyirəm...əllərini, gözlərini, bütünlükdə vücudunu. Unutmaq istəyirəm mənə dediyin kəlmələri... sənlə bağlı nə varsa... Mən sənin gözündə deyildim, bilirəm. Amma sən gözlərim önündən getmirsən. Səni unuda bilmirəm. Anlayıram, mən sənin nəyinə gərəyəm axı?!

Məni yaddaşının bucağına at,

Məni nifrətinin ocağına at,
Dartıb əllərimi sinəndən qopart,
Mən sənin nəyinə gərəyəm axı?!

Kimdir o

Arzularım puça çıxdı. Sənin üçün çəkdiyim əzab və iztirablar evimin daimi sakininə çevrildilər. Bəs sən...yox, bunu soruşmaq istəmədim. Nə düşünürsən? Yox, bunu da soruşmaq istəmədim. Kimi düşünürsən? Kimdir o, sənə zəng edən?

Mənim arzularım toxundu daşa,
Yeni sevgilinlə indi baş-başa
Necə istəyirsən elə də yaşa,
Mən sənin nəyinə gərəyəm axı?!

Baxışlarınla mənə get, deyirsən. Gedirəm. Sorğu-sual üçün səni məhşər günündə gözləyəcəyəm, sevgi Tanrısının hüzurunda .

Uğur olsun

-Hara?

-Çəkilişim var.

-Dayan, qeydiyyat kitabına baxım, dedi, növbətçi polis.

-Mətanət Ulu Şirvanlı?

-Bəli.

-Buyurun, üçüncü mərtəbə.

İctimai tv kanalı. “Səhər Sovqatı” Səhərin qonaqları; Şairə Mətanət Ulu Şirvanlı, şair Güloğlan Dünya. Aparıcı Nərgiz xanım. Verlişin redaktoru: Əli Aslanoğlu. Təyyar Bayramovun rəhbərliyi ilə musiqi

qrupu. Bu gün də belə yadda qaldı. Uğur olsun, Mətanət Ulu Şirvanlı!

Səni niyə görməmişəm

-Salam. Səni ilk dəfədir görürəm.

-Hmm

- Mən səni niyə görməmişəm?! Yəqin Günəşin arxasında gizlənmişdin?!

Günəş arxasında gizlənən gözəl,
Kim kimdən gözəldir, deyə bilərsən?
Aydan da gözəlsən, Günəşdən də sən,
Gözəl, dünyayla bəhsə girərsən!

Yox, yox, günəş sənin arxanda gizlənər, utandığından.

Unut

Görəsən, nəyi gözləyir? Axı nəyi? Yadına heç nə düşmür. Mən varam, yoxam...elə bil olmamışam... Bir az düşünüm...ağlım deyir:

-Eh, nə bilim, özünə haqsızlıq edirsən. Unut.

Qayıt

Nədi, nə istəyirsən? Qayıt get. Çıx get Allah eşqinə. Pozma həyatın düzənini. Səni görmürəm. Daha doğrusu- görmək istəmirəm. Çıx get, dedim. Qayıt! Mən də gedirəm.

Ah, bu yollar! Məni hara aparır? Gedirəm. Evimə gedirəm. Hə, bu da çiçəkli bağçam. Bax a, ürək, dönmə əhdindən. Allah eşqinə dönmə!

Kədər lavası

At kədəri ürəyindən, at. Üzüntünü yox et. Dön geri bax və şəlalədən çarhovuza tökülən suyun şırıltısına qulaq as- həzin bir nəğməyə qulaq asdığın kimi. Bir də əllərinlə becərdiyin növbənöv güllərin gözəlliyinə tamaşa et. Çiçəklərin rahiyəsi səni niyə bihuş etmir axı?! Ürəyində gəzdirdiyin kədər nədir belə?

Ətrafını sarmış bu çilçıraqlı həyətin əsrarəngiz gözəlliyi səndən uzaqdır, sanki. Ətrafındakı təbiət gözəlliyini duymursa.

Qaranlıq düşür. Quşlar da susdu. Qalx. Götür samovarı, apar qoy yerinə. Mürəbbəyə də əl vurmadın. Çayını qəndlə içdin. Olsun. Bu gün də belə ötdü. Özün bilərsən, apar kədəri ürəyində öz otağına. Lap yataq otağına da apara bilərsən. İstəsən kurjevalı mələfənə də bükə bilərsən qəlbindəki kədəri.

-İncimə könül, incimə. Deyəcəyəm; axmaqsan!

Sığalla kədərini. Amma gör kədərin səni sığallayırmı?

Öz-özünlə söhbət

Çək əllərini telefondan. Çək! O, ki, sənə zəng etmir. Deməli, yadına düşmürsən. Bəs sən niyə zəng etmək istəyirsən?!

Sal əllərini cibinə. Bax, belə. Darıxırsansa otaqda var-gəl eylə, amma zəng eyləmə! Gözlərini də çək telefondan. Zəng etməyəcək! Hara qaçırsan? Deyəsən, telefon çağırdı...

-Kimdir? Hm. O, deyil. Gördün. Dedim axı, zəng etməyəcək.

Gəl...

Necə də intizarla gözləyirəm səni, Məryəm. Gəl, quzum, gəl, çiçəyim, gəl. Gəl, bu dünyanı salamla. Gəl, bu dünyanı anla, gəl.

Gəl izim, gəl özüm, gəl həyanım. Gəl uğurum, gəl mələyim, gəl. Gəl, Məryəm, gəl!

Salam

Salam, Qoca. Nə düşünürsən? Yox, elə demək istəmədim, daha doğrusu bunu soruşmaq istəmədim. Kimi düşünürsən? Bu qeydlər nədi kitabçanda? Nəyi işarələyirsən? Yaşadığın illərinimi, ya qalan günlərinimi?

Eh, Qoca, Qoca...

Kimə, mənə

Bu kasıblıq səni öldürəcək. Nə almaq istəyirsən? Özü də mənə? Lazım deyil! Pulu qoy cibinə.

Öləcəksən

Ölmək istəmirsən?! Öləcəksən! Özü də it kimi gəbərəcəksən! O günü necə də görmək arzusundayam. Nankor! Bu gün də ölməsən...sabah öləcəksən...Əgər sabah da ölməsən...eh nə fərqi var, axırı nə vaxtsa öləcəksən! Öləcəksən... öləcəksən!

Sənin Əzrayılın burnunun üstündədir. Gözlərini aşağı endir, görəcəksən. Öl, amma, Əzrayılı görəndə ürəyin partlamamış öl.

Yox, qız, hələ ölmə, sənə hələ baxmaq istəyirəm...

Yahu

Ağ, balaca Yahu deyəsən, susamışdı. Yaşıllıq içərisində tikilən həyətdəki şəlalənin üstündə bir neçə dəfə dövrə vurdu. Lakin suya enmədi. Çünki biz suya yaxın oturacaqda əyləşmişdik. Yahu özünü yarıtikilmiş evin damı altına saldı. Az keçmədi ki, oradan çıxdı. Qonşu həyətdəki üzüm çardağına qondu. Və suya həsrətlə baxaraq qanadlarını çırpdı və bizə yalvarırmış kimi səs şıxartdı.

-Durun, burdan gedək, -dedim.

Yahu suyun üzərinə qondu. Mənə elə gəldi ki, o su içmədi. Suyu ağzında apardı.

Sabahın xeyir, dünya

Sabahın xeyir, ey günəşli, ey, çiçəkli dünya! Sənin zinətlərin içərisində ən dəyərlisi nədi? Su, od, səma, torpaq? Yoxsa üzümə gülümsəyən bu şəfəqli Günəşmi? Bütün bu ünsürlərsiz insan oğlu yaşaya bilməz.

İnsanı sənin əşrəfin sayırlar, dünya. Biz isə səni Allahın möcüzəsi!

Qonşuluqda xoruz banladı. Yəqin o da səhəri salamladı. Bağçamda titrəşən çiçəklər də dünyanı hər səhər salamlayır. Ah, dünya, əbədi dünya. Biz yalnız sənə salam verməyə gəlmişik.

-Sabahın xeyir dünya!

Günəş batır, Qoca

Burada nə gəzirsən Qoca?! Nə axtarırsan şəhərin burulğanında? Bəlkə bu qatar vağzalının yanında durmaqda məqsədin kimi isə gözləməkdir?! Yox, belə deyilmiş. Üzünü 28 may metro stansiyasına sarı yönəltdin. Kassaya yaxınlaşdın.

Hm. Cibindən çıxartdığın, əski parçasına dönən qatar biletinə bax. Hara gedirsən axı? Sənin ki, evin əks istiqamətdədir. Günəş batır, qayıt evinə Qoca, qayıt.

Körpə

Bu gün dünyanı bir körpə salamladı- adı özündən qabaq doğulan körpə. Və dünya da körpəni salamladı. Xoş gəldin balaca qızcığaz, dünyaya, -dedi.

Ayaqlarını yerə bərk bas, ey körpə. Bərk bas ki, bu dünyanın gərdişinə duruş gətirə biləsən və hər işində qalib gələsən.

Sən ey dünyanı açıq gözlə görmək və dərk etmək istəyən körpə, uğurlar nəsibin olsun! Taleyinə firavanlıq yazılsın. Sayılan və seçilən kəs olasan! Azərbaycan adlı şirin məmləkətdə xalq istəyi boyda dəyərin və hörmətin olsun, inşallah.

Xoş gəldin Məryəm!

Hə, Məryəm, bu sənsən, gözlədiyim sən. 27 may saat 10:45 dəqiqələrində gəldin dünyaya. Xoş gəldin izim, xoş gəldin cığırım, xoş gəldin adaşım. Xoş gəldin ruhum. Xoş gəldin candan bir parçam. Xoş gəldin dünyaya!

Kiçik mələk

Bu körpənin açıq baxışlarında hansı hikmət var? Bu nə baxışdı İlahi? Əvvəlcə iti baxışla mənə, sonra qəribə nəzərlərlə öz bibisinə, daha sonra isə ətrafdakılara nəzər yetirdi, dünyaya təzə gələn körpə. Dünyaya baxışların beləcə geniş olsun, balam. Xoş baxdın əzizlərinə. Hə, qızım ətrafındakılar sənin əzizlərin, doğmaların və daima səni qoruyanlarındır. Yalnız ən böyük qoruyanın Tanrın olsun, kiçik mələk!

Bezdim

Bezdirdin məni. Axı nə istəyirsən, Qoca?! Mənim vaxtım yoxdur! Sənlə söhbət edə bilmərəm. Darıxırsan? Mən neyləyim axı?! Sənin kimin, kimsən yoxdurmu ki, sənlə həmsöhbət olsun?! Bezdim, Qoca. Çıx get.

Sənli düşüncələr

Səni düşünərək...

Ah, Qoca nə gəzirsən burada? Guya ki, yolunu itirmisən, guya ki, bu, təsadüfi gəlişdir. Hm. İnanmaram, yolunu azdığına. Nəyə baxmaq istəyirsən? Mənim həyat tərzimə?!

Bax, bura mənim məkanımdır. Bu da mənim otağım. Bu isə mənim yatağımdır. Hər gecə büzüşüb burada yatıram. Özü də səni düşünərək.

Çəkiliş

Gözlərini bir nöqtəyə zillə və bax. Kipriklərini qırpa bilərsən, amma mövqeyini dəyişə bilməzsən. Obyekt səmadı.

Tərpənə bilmərəm dedi, rejissor. Lakin düşünmək haqqında bir kəlmə də deməmdi. Onda düşünüm...Bu günləri mənə göstərdiyinə görə Sənə təşəkkür edirəm, Allahım. Mənə səmaya bax, danışma, dedilər. Lakin bilmədilər ki, səmaya baxa-baxa ürəyimdə söhbətlərin ən ülvisini etdim, Yaradanımla.

Şairə

Bu gözəl duyğunu və incə hissi daşımaq fəxarətdir. Allah ilhamın və lətafətin bol eyləsin.

Darıxıram

Çoxdandır sənə salam vermək fürsətini yaxala-mamışam. Salam, Qoca. Necəsən? Deyəsən, səni görməyəndə darıxıram axı. Ah, Qoca ah. Heyf ki, əllərin titrəyir, dizlərin sözünə baxmır.

Əzab

Sənə təşəkkür edirəm hisslərini açıq şəkildə bəyan etdiyin üçün. Və mən buna sevinirəm. Bəlkə də "Birinci Avropa Oyunları"nda qızıl medal qazanan idmançılar mənim qədər sevinməmişdilər bu günlərdə.

Onu da qeyd edim ki, səni kəşf etdim. Və təbrik edirəm, fikirlərini aydın ifadə elədiyinçün. Qeyd edim ki, bəlkə də bu, sevginin deyil, əzabın təzahürüdür. Çünki, sevgini bəyan etmək sənin üçün bir əzab idi.

Nədən

Sən o sən deyilsən. Səni səndə gəzirəm. Özgələşmisən. Səni səndə arayıram. Tapmaq istəyirəm səni. İçində gizlətmisən özünü.

Ah! Səni səndən qopara bilmirəm. Yadlaşmısan. Bu soyuqluq. Bu yadlıq... Bilirəm nədəndi. Qəlbindəki kin-küdurət nə vaxt silinəcək görəsən? Hisslərin mənə qarşı buzlaşdı. Yox, əzizim, buz əriyər, sən daşlaşmısan, təəssüf ki, daş ərimir.

Təklif

Bu günah səninmi, ya mənim? Kimdir günahkar?

İstəyim var. Son kərə görüşək və ayrılaq. Bəlkə də dost qalaq. Məncə bu təklifi bəyənəcəksən-dedim.

-Necə? Yox deyirsən! Ayrılmaq istəmirsən. Təşəkkür edirəm təklifimi qəbul etmədiyinçün.

-Bağışla, 100 % günahı boynuma alıram, deyirsən. Bax, buna da mən razı deyiləm.

-50-50yə mi?! Hm. Günahları bölək və barışaq. Əla təklifdir.

Gecənin nəğməsi

Gecənin nəğməsinə qulaq asmaq istəyirsən? Nədi, musiqi səsi eşitmirsən? Gecənin nəğməsi qaranlıq və sükunətdir. Dincəl və rahatlan gecənin qoynunda.

Sevimli

Sən sevimli və sevilməli Qocasan. Dəyərlisən. Layiqli dostsan! Təəssüf ki, Səninlə çoxdan rastlaşmamışam.

Hədiyyə

Bu hədiyyə kimindir? Mənimmi? İlahi, dəyərli insandan hədiyyə almaq insana gözəl hisslər yaşadarmış! Dəyərli hədiyyən üçün təşəkkür edirəm, Qoca.

Param-parça

Gözlərimə baxmaq istəyirsən? Onsuz da rəngini bilə bilməyəcəksən. Bircə onu biləcəksən ki, gözlərim

param-parçadır. Qəlbimin parçalanmış və qəlpələnmiş hissələri gözlərimə hopub. Baxma gözlərimə, nə qəlbimin kədərini ovuda, nə də gözlərimin rəngini dəyişə bilmə-yəcəksən.

Məyusluq

Salam Qoca, məyusam. Həyatımda ilk dəfə idi ki, gəncliyimin ötüb getdiyini bu gün mənə xatırlatdılar. Nə qədər kədərləndiyimi bilə bilməzsən. Bilirmisən, sakit və pıçıltıyla mənə nə dedilər:

-Cavanlıq şəkilinə baxmaq istəyirəm.

Ah, Qoca, o an özümü necə itirdiyimi görməliydin.

Bağışla

Xəqani küçəsi. Günün ikinci yarısı. Budur, qarşıda şair, geologiya-minerologiya üzrə fəlsəfə doktoru Oqtay Rza.

-Salam, sizi görməyimə şadam. Düzdür, hər dəfə sizi görəndə aramızda olan hadisəyə görə çox utanıram. Allah Qəşəm Nəcəfzadəyə insaf versin. Bağışla məni, Oqtay Rza. Amma qeyd etmək istəyirəm, siz dəyərli şəxsiyyətsiniz!

Dik gəz

Belini dik tut, Qoca. Dik gəz. Səni zamana meydan oxuyan görmək istəyirəm. Bilirəm, qocalmısan, lakin mən sənin ölməyini istəmirəm.

Qarışqa

Qolumun üstündəki nədir belə? -Ay..y, qarışqa. Götürüb ağzıma atdım. Dilimin üstündə çapalamağa başladı. Dilimlə onu sağa-sola çəkişdirdim. Və daha sonra ağzımdan çıxartdım, su krantının axarına verdim. Qarışqa özü suya qarışıb getsə də, qəribə tamı ağzımda qaldı.

Hədiyyə

Balaca Tamilla və kiçik Əfsun, canlarım mənim. Xoş gəldiniz baba evinə! Siz gələndə evimiz canlanır. Amma bu gün ilk dəfədir kiçik Məryəm evimizdən içəri girir. Xoş gəldin baba evinə, balaca qızcığaz. Qədəmlərin uğurlu olsun.

Lap yadımdan çıxmışdı, sənə mənim hədiyyəm var, axı. Bu kiçik qızıl boyunbağı sənin boynunda parıldayacaq, Tanrım isə həyatını parlaq etsin. İnşallah!

Nar çiçəyim

Tamilla balanın ömür kitabına gözəl bir gün yazıldı; uşaq verlişində, İrəmin təqdimatında, ANS Tv kanalında Tamillanın düşüncələrinin və dediklərinin xatirəyə dönən anlarının şahidi olduq. O, evlərin və tamaşaçıların qonağı idi. Daim diqqət mərkəzində olasan və gözəl həyatın olsun, nar çiçəyim.

Kimdir haqlı

Gecə saat 2-ni ötüb. Dərnəgül şossesində şütüyən “Prado" markalı minik avtomobilinin arxa oturacağında

balaca, toppuş bir qızcığaz boynunu bükərək yatıb. Sükan arxasında olan qadın qızcığazı ovundura bilmədiyindən onu geri anasına aparırdı.

-Ax, Tamilla, sənə nə deyək?! Ananı arzuladın. Bəlkə də sən haqlısan. Axı səni çox görmək imkanımız olmur.

Sağ olsun

Doğurdan a...a... bu gün bizim evliliyimizin ildönümüdür. Amma sən bunun üçün məni təbrik etməmisən, əzizim. Elə mən də. Deyəsən, artıq bunun əhəmiyyəti qalmayıb axı?!

Zəng edib yadıma salan və bizi təbrik edən ciyərparə sağ olsun!

Ruhum

Cismim bütöv, ruhum isə param-parçadı. Xoşbəxt cismim hər yerdə görünür. Ruhum isə özünə yer tapmır, cismimdən qopa bilmir. Vücudum ruhumu məhkum edib can qalasında. Dustaqlıqsa ölümdən betərdir.

Ruhum cismimin ölməyini gözləyir. Cismim yenə xoşbəxt. Qəbri onu gözləyəcək. Bəs ruhum hara gedəcək?

Codlaşmış əllər

Əllərinə bax. Bəsdir bu torpaqda eşələndiyin. Nə qədər qulluq etsən də bu bağça payızın sonunda özünü qışa təslim edəcək. Yaratdığın gözəllikdən əsər-əlamət qalmayacaq.

Öz gözəlliyini bu bağçada məhv edirsən. İnanmırsan? O zaman codlaşmış əllərinə bax.

Hansına

Bağçamdakı gavalı ağacı mənim çətirimdir, hər gün kölgəsində əyləşirəm. Daha doğrusu altına qoyduğum oturacağın üstündə dincəlirəm. İndi mən hansına təşəkkür edim, ağaca və ya oturacağa?

Qalx ayağa

Niyə imkan verirsən qarnıac ağcaqanadlar səni didib-dağıtsınlar? Bədirlənməmiş Aya baxa-baxa pillə-kənin ayağına çöküb qalmısan. Qalx ayağa.

Yorğun bədən ruhunun köməkliyi ilə qaranlıqdan işığa sarı süründü. İşıq selini vücudunu bürüdü. Bax, belə. Zülmətin içərisindən qalxmaq, aydınlığa çıxmaq varlığın isbatıdır.

Pozitiv düşüncələr

Bağçamda gecə mənzərəsi *və yaxud* Büllur gecə

Günəş getdi. Sabah yenə gələcək şəfəqlərini bağçama sancmaq üçün. İndi isə bağçamda sərin meh dolaşır. Çiçəklərin əllərini öpən gilavar mənim də ətəklərimə dolaşır. Sanki, beləcə mənə təşəkkür edir, bağçada yaratdığım gözəllikçün. Ah, gilavar...gilavar...

Gilavardan ləpələr,
Göydən yerə səpilər,
Günəş geri çəkilər,
Sükunətin aynası
Gecələr, ay gecələr.

Mənə elə gəlir ki, bağçamdakı ağaclar, kollar, bitkilər və güllər mən olmasam darıxarlar. Ah, bu karlik qızılgüllər isə itib-batar ayaq altında, onları qorumasam, halları acınacaqlı olacaq.

Yarpaqlar pıçıldaşar,
Ləpələr qucaqlaşar,
Meh bağçanı dolaşar,
Ay bağçama yaraşar,
Gecələr ay gecələr.

Gecələr füsunkar olur bağçamda. Ay doğmağa və ulduzlar parlamağa tələsirlər bağçama tamaşa etmək üçün

hər gecə. Ulduzların atası olan Ay həsrətilə bağçamın üzərinə kölgə salır.

Göy yerin həsrətində,
Göyün səltənətində,
Ayın lətafətində,
Kainatın atası
Gecələr, ay gecələr.

Sən ey büllur gecə, bilirmisən, sən bağçama mən isə sənə aşiqəm!

Geri dön

İzsız məkan arzusundayam. Sanki mən doğub-doğulmamışam. Nə əzizlərimi ata bilərəm, nə onlar tərəfindən atıla bilmərəm, məncə. Düşüncələrimsə çırpınır.

Ayaqlarım məni çəkir, aparır. Ey miskin, bədbəxt, hara gedirsən? Məhkumsan intizara, həsrətlisən doğma balana. Geri dön, geri.

Mən dönmək istəmirəm, izsız məkan arzusun-da-yam.

Niyə

Bağçamda toplaşan müxtəlif növ quşlar çiçəklər arasında şənlənirlər. Kollar arasında çırpınır, bağçada əkdiyim çiyələkləri, ağacdakı gilənar və gilasları yeyir, su ilə doldurduğum çarhovuzdan su içir, bəziləri isə ağaclar arasında gecələyir, səs-küyləri ilə ətrafın sakitliyini pozurlar. Bir sözlə, hazıra-nazir qonublar bağçama. Məni isə onlar hər gün həyətdə təkcə əyləşən görürlər. İlahi, bəs məni niyə saya saymırlar?

İşıq seli

Yalnızlığa məhkumam. Düşünürəm...Yenə... Qaranlıq zəkamın içərisində böyük bir parıltı hiss edir və görürəm. Bu işıq selidir. Düşüncələrimdən doğan işıq seli.

Məhkum

Sözsüz ki, yenə təkəm. Amma bu məni nə qorxudur, nə də darıxdırır. Ürəyimdə müdhiş bir rahatlıq var. Bu, məncə tənhalıqdan yaranan əbədi dinclikdir. Hər zaman ətrafımda insanların olmasına baxmayaraq mən doğulandan daxili yalqızlığa məhkumam.

Ziyarət

Ölülər, çoxdandır ziyarətinizə gəlmirəm. Yəqin ki, məndən incimisiniz?! Düzünü desəm, vaxt tapmamışam. Hə, bilirəm, ziyarətinizə çoxdan gəlməliydim. Lap tezliklə, sizi ziyarət edəcəyəm, inşallah.

Kimdir

İlahi, ətrafımdakılar kimdir? Mənə yad doğmalarmı, yaxud doğma yadlarmı?

Gözəl gözlüm

Mehribanım! Gözəl gözlüm, gözündəki bu işıq seli nədir bəs? Parıldayan yaşıl gözlərinin baxışlarla verdiyi sual öldürəcək məni bir gün.

Zərif və zəif

Saat 00:05 göstərir. Təkəm. Bu nə arxayınçılıqdır belə?! Dur qapını kilidlə. İlahi, qadın da bir belə qorxmaz olarmı? Axı sən zərif və zəif məxluqsan. Qorxmalısan!

Həsrət

Oğlum - uzaqda, həsrətim - yaxında. Yaşımın bu çağında doğma yadlara möhtacam.

Qaranlıq

Qatı qaranlıq duman təki süzülür pəncərəmdən otağıma. Göyün ənginliklərində parıldayan Ay işığı otağıma dolan qaranlığın qarşısını kəsə bilmir. Və mənə elə gəlir ki, bu qatı duman yalnız mənim pəncərəmə sarı sürünür. Qoy dolsun otağıma, qəlbimdə ki, işıq var.

Qocalmış düşüncələr

...qorxutmur

Qaranlıq və ölüm. Hər ikisi qaçılmazdır. Günəş gedən kimi qaranlıq düşəcək. Eləcə də cavanlıq gedən kimi qocalıq gələcəkdir. Hər ikisində zülmət hökmrandır. Və hər ikisinə də tabeyik.

Mərhəmət

-Nədən qorxursan?

-Yalnız Allahımdan.

-Onun mərhəməti var.

-Bəndələrini mərhəmətindən uzaq salma, Ya Rəbbim!

Xoş gəldiz şairə

-Xoş gəldin evimə, Sənəm Səbayel, tanış ol, bunlar mənim ailə üzvlərimdir. Bilirəm ki, məni çoxdan yaxından tanımaq istəyirdiniz. Elə mən də sizi yaxından tanımağa şad oldum. Eh, səni, deyəsən, məndən çox bağçamı sevdiniz?!

-Bağçamı bəyəndiyiniz üçün təşəkkür edirəm.

-Bağban? -Dodaqlarıma kəpənək kimi təbəssüm qondu. Əllərimə baxır və deyirəm:

- Budur bağban, tanış olun, codlaşan və qaya kimi sərtləşən əllərim.

Qorxuram

Niyə narahatsan Qoca? Qorxma, heç nə baş verməyəcək! Əslində haqlısan, bəzi hadisələr cərəyan edə bilər. Bəlkə də qorxmalıyam! Düzünü boynuma alsam, qorxuram Qoca, vallah qorxuram.

Amma...yox... Sənin qorxduğun və baş verə biləcək hadisənin olmasına imkan yaratmayacağam.

Amandı

...vallah getmək istəyirəm, göz görə-görə oda düş-mək istəyirəm. İlahi, yanan oda girmək və oradan nəinki ütülüb çıxmaq, hətta tamamilə yanmaq təhlükəsi var. Getmə Ulu Şirvanlı, amandı, getmə!

İnsaf

Çoxdandır səni görmürəm. Yəqin böyümüsən?! Hə, mütləq belədir! Onsuz da boyun uca idi. Bəxtin uca olsun balam! Özün mənə qadağan olunduğun kimi şəklin və telefonda səsin də qadağan olunub. “Onlar”ın insafi yoxdur. Bəs sənin insafın hanı, balam?!

Ağlama

Ağlama Qoca, vallah, ürəyimi üzüb, bir tikə etmisən. İlahi! Ağlama, sənin göz yaşlarını nə edim axı?! Əllərimi və yaxud günahlarımı yuyum?!

Oğru

28 may-metro stansiyasının qarşısı. Müəllimi gözləyirəm. Telefonda guya kiminləsə danışan və tez-tez

yerini dəyişən, sağ-oluma keçən oğlan. Və o, telefonla danışa-danışa, mənə müraciət edir.

-Xanım, gözünüzün qarası yayılıb, silin.

Kinayə ilə gülür və təşəkkür edirəm. Sonra isə ağzıaçıq çantamın zəncirini çəkirəm. Bununla da onun ümidlərinə son qoyuram. Özüm isə düşünürəm;

-Gözümün qarasını görən oğru, gözümdən tük oğurlaya bilərsən, amma çantamdan pul kisəmi əsla!

Gəl

Gəl möhnətim- həsrətim bitsin, qəmim ötsün. Gəl, gözümə nur gəlsin. Gəl ürəyim, şah damarım, damarında qanım olanım, gəl başına dolanım. Həyatım, canım, həsrətim, gəl. Günəşim, Ayım, baharım, yayım, ay mənim duyğularım - balam, gəl oğlum.

Ətir şüşəsi

Ay oğul, verdiyin ətiri qıyıb vurmuram. Şüşəsini ətirdən bahalı bildim. Hər ona baxanda sandım ki, sənsən. Bağrıma basaraq şüşəni öpdüm. Ay bala, ətirin iyini bildim, bəs sənin canının iyi necədir, bunu bilmədim?!

Lal

Sevincim lal, kədərim lal, hətta qədərim laldı, mənim.

İztirab

İztirablarımın yox olmasını istəmirəm. Həyatımın sonunda özü məni tərk eyləyəcək.

Zəng

-Mənə zəng eyləmə, heç kimlə danışmaq istəmirəm.

-Mənimlə də mi?

-Bəli, səninlə də.

Telefon susdu. Mənsə düşündüm; - Danışmaq istəmirəm, lakin bu o demək deyil ki, səni sevmirəm. Səni sevirəm, canım mənim. Amma mənə zəng eyləmə.

Oxunmayan düşüncələr

Məktub

Məktub yazmışam, heç vaxt açılmayacaq, heç kimin oxumayacağı bir məktub. O məktub ki, sətirlərində iztirablarım sevincimdən çoxdur. Deməli, heç kim oxuyub qanını qaraltmaq istəməyəcək. Amma məktubu ünvanlamamışam. Niyə? Məhz ona görə ki, indi məktub dövrü deyil.

Səbat

Səbat - mənası mətanətli, dəyanətli deməkdir. Hər kəs öz adının mənasını daşıyır, deyirlər. Yox, bu, mən deyiləm!

-Görəsən, Məryəm adının mənası... Mən kiməm, İlahi? Kimliyimi bilməsəm də, Məryəm sözünün mənasını bilirəm; -tərkibində yağ olan, ətirli ot bitkisidir. Bu da pis deyil, məncə.

Ruh

Cismini hara istəyirsən apar, kimə istəyirsən ver. Ruhunu isə mənə bağışla.

Sarı çiçək

Ey atılan, çoxları tərəfindən sevilməyən sarı çiçək, üzülmə, sən hər yerdə gözəlsən! Hətta zibillikdə bitsən belə, orada da gözəl görünəcəksən!

Eh, sarı çiçək, boynuma alım ki, mən də sevilmirəm. Sənə təskinlik verməyimə baxma. Üzgünəm.

İnşallah

Qaranlıq... Gecə... hər gecənin bir səhəri... Hər qaranlığın bir aydınlığı doğar, inşallah.

Ah, İlahi, bəs gecəyə bənzər gündüzlərim necə aydınlaşacaq?!

Ögey

Mənə ögey ana dedin...

Nədi qız, niyə odunu-közünü götürüb düşmüsən üstümə? Sən dedin, mən də eşitdim. Bəli, mən ögey anayam.

Bəs özünə niyə sual vermirsən ki, ögey ana dediyim qadın mənim üçün yuxusuz gecələr, narahat gündüzlər keçirib. Bəs niyə onu da demirsən ki, məndən ötrü kipriyi ilə od götürüb, özgələrdən söz götürüb, saçlarına iz götürüb bu, ögey dediyim qadın.

İnsaf, qız, insaf eylə və düşün. Mənim doğma analardan nə fərqim var?!

Mənə ögey ana dedin...

Dəli olmaq istəyirəm

Qınamayın məni dostlar, ay ürəyi, gözü toxlar. Gör nə günə qalmışam ki, dəlilərə paxıllığım gəlir yaman! Nə yeməyin, nə içməyin dərdin çəkir. Günləri də nə xoş keçir, dəlilərin.

Dəli olmaq istəyirəm!

Mən o bədbəxtəm

Məni tanımadınmı? Mən o bədbəxtəm! Çırağı sönən, əlləri hər yerdən üzülən, hər an yolunu gözləyən bədbəxt. Niyə belə baxırsan? İlahi, tanımadı.

Mənəm, mən! Xatırladınmı?! Vaxtilə mənə dediyin; -saçları yosunum, gözləri dənizim, ah əzizim! Yadına düşdümü?

-Aman Tanrım yenə yadına düşmədim.

Ölüm arzusu

Gedin qəbrimi qazın, əhlədimi vurmayın, harada rahat olsam başımı ora da qoyacağam.

Düşüncə

Məni öldürə bilərlər, lakin düşüncələrimi əlimdən ala bilməzlər.

Vəfasızlar

Bu dünyadan köçənlər etibarsızdırlar. Köç edirlər və bir də geri dönmürlər. Bu dünyadan, doğmalardan, əzizlərdən əllərini üzürlər. Yaman vəfasızdırlar bu dünyadan köçənlər.

Məktub

İstədim ölən atama
bir məktub yazam,
Ölən qonşumuz aparsın.

Düşündüm, gərək deyil.
Aparmağına aparar -
cavabını kim qaytarar?

Külək

Ayaqları qadının sözünə baxmadı. Onu çəkib dəniz kənarına apardı. Ah, bu gilavar, bu külək...

Külək mənim istəklimdir. Tez-tez saçlarıma sığal çəkir, düşündü,- qadın.

O, bir qadındı, saçları sığal istəyir.

İstərəm

Əzizim, məni ürəyində dəfn et. Bütün hallarda yanında olmaq istərəm.

İdrak

Heç nəyi dərk etmədən dünyaya gəldik, idrakla dünyadan köç edəcəyik.

Sevmə

Bəxtəvər o kəsdir ki, kimsəni sevmir! Sən, ey tərk edilən qadın, yolun haradır?

Budur olacağı! Sevmə, dedim sənə, ürəyim, sevmə. Eh, kimə deyirsən, o ki bir parça ətdir!

Həqiqət

Cəmiyyətin ali deyilən təbəqəsində bol-bol boyalar, sadə təbəqəsində doğruluqlar hökm sürür.

Yalan, riya, fitnə…və daha nələr…Ah, mən yoruldum ətrafımdakı bəzi boyalı simalardan.

Bəs mən ayağımı hara qoyum?

Hərdən qulaqlarıma inilti səsləri gəlir. Mənə elə gəlir ki, kim isə zarıyır. Özü də necə! Və bir gün anladım ki, bu səs hər gün keçib getdiyim, tapdaladığım yolların iniltisidir. Yolların heysiyyatına dəymək, qururunu əzmək, tapdalamaq asan məsələ deyilmiş.

Hə, özüdür ki, var. Yollar haqlıdırlar. Yolları nə qədər tapdamaq olar?!

İlahi, yenə də həmin səsləri eşidirəm. Ayağımın birini götürüb, ehmalca o birisini qoyuram. Gah sağa, gah da sola qaçıram. Yolları incitməyim deyə. Yox, yox, belə mümkün deyil! İlahi, bəs mən ayağımı hara qoyum?

Qəbirstanlığa səyahət (silsiləsindən bir parça)

Öz-özünlə nə söhbət edirsən qadın?

-Hamı dirilərə salam verir və sağ ol!- deyir. Allah rizası üçün ölüləri də yada salın, deyirəm.

-Salamunəleykum ey əhli-qüburlar. Sükut və sükunət.

-Yəqin məni başa düşmədilər. Salam, ölülər! Eh, deyəsən, hamısı yatıb.

Sənin də qorxun yoxdu, qadın. Gecənin bu vədəsində qəbirstanlıqda nə gəzirsən axı?! Qorxmursan?

-Vallah qorxuram. Odur ki, geri baxmıram.

-Bax, bu yerə qədər ruslar, buradan o yana isə müsəlmanlar basdırılıb, bu qəbirstanlıqda. İndi sən hansılarına salam verirsən üzü şərqə və ya üzü qərbə yatanlara? Eh, sən də… gör bir salamımı alan varmı?

Sən də gecənin bu vədəsində salam verməyə vaxt tapdın.

-Yaxşı o zaman;

-Gecənin bu vədəsində salam daşıyan pərilər, mələklər və bir də ey əhli-qüburlar, gecəniz xeyirə qalsın!

Şehli düşüncələr

Döz, ürəyim

Ürəyimin başında qızaran köz-döz ürəyim ayrılığa döz!

Atdı və getdi. Bəs sənin evin, bəs evindəki anıların, bəs mən? Ey…y…, mən deyirəm…

Qayıtmadı. Döz ürəyim, ayrılığa döz!

Buyur, get

Səni itirmək özümü itirməkdir. Özümü itirməkdən qorxuram, düşündü, qadın. Fikir vermə, qoy getsin.

Qapı açıq qalıb. Buyur, get! Gedəni saxlamazlar. Bilirmisən, nədən qorxuram, səni itirməklə özümü də itirəcəyəm.

-Əşi buyur, get!

Mənlər…

Bəzən qarşımda üç qadın dayanır; sarışın, əsmər, ağbəniz. İlahi, deyəsən, üçü də mənəm axı?! Hə, üçü də mənəmmiş! Amma bu mənlər daxilimdədir. Həmişə mənlə dərdləşirlər, darıxmağa qoymurlar. Biri saçlarımı darayır, biri ətirlərə qərq edir, digəri isə dərdlərimi bölüşür, sonra da əllərimdən tutub məni xəyal dünyasına aparırlar.

Bilirsinizmi, onlar yanımda olanda dünya göz-lərimdə necə də gözəlləşir?! Sanki boşluğa düşürəm; səmanın ənginlikləri ayaqlarım altında, musiqi sədaları

qulaqlarımda, təbiətin gözəl çalarları gözlərim önündə dayanır. Fəza cismləri isə qarşımda rəqs edirlər. İlahi, istəmirəm ki, bu qadınlar məni tərk etsinlər

Dəniz qızı

Qadın gözlərini dənizə dikir; - düşünür:

-Bu mavi dənizin gözləri necə də dərinmiş. Dənizin dupduru gözləri var imiş. İlahi, bu gözlərdə itmək...Əllərini üzünə çəkir.

-Mən ağlayıram? Hə, mən ki, ağlamıram bəs gözlərim niyə ağlayır?

Göz yaşlarım dənizin sularına qarışaraq onsuz da duzlu olan suları bir az da şorlaşdırdı. Hərdən dənizin köksünə sığınmaq istəyi yaman çulğalayır məni.

Və könlümdən keçir ki, kaş gözlərim mərcan, saçlarım yosun olaydı. Saçlarım sularda darana, gözlərimin yaşını balıqlar yalaya. Balıqlara qoşulub dənizin ənginliklərinə baş vuraydım...Hə, lap elə dəniz qızı olaydım.

Dünya

Şükür Allaha! Bu gün də Günəşə gülümsədik. Sabahınız xeyir olsun, dünya!

Dünyaya doğan, üzümüzə gülümsəyən Günəşin şüaları bəxtinizə doğur bu səhər.

İztirab

Mərhəmətlisən İlahi, Sən hər şeyə qadirsən! Sənə əyandı ağrı-acılarım.

Sənə yalvarıram, məni iztirablardan azad etmə. İztirablar həyatımın mənasıdır. Bu iztirablar sevgimin özüdür. İztirablarım məni tərk etsə sevgim unudular.

Yox, mümkün deyil. Axı mən sevgimi unutmaq istəmirəm. Daha doğrusu mən sevdiyimi unutmaq istəmirəm. Ey qəlbimə çökən iztirablar, ürəyimdə sənə sevgimlə birgə yer ayırmışam.

İlahi, yalvarıram, məni sevgi iztirablarından, məhrum etmə.

Zəncir

Yazıq, yazıq sənə ürəyim, nə yaman zəncir-lənmisən. Çəkə bilmirsən bu zəncirin ağırlığın. Amma yaman inadkarsan. Heç bilmirəm nə qədər inad edəcəksən. Onsuz da yükün ağır idi-qəm yükün. İllərdir bu qəm yükünün altında əzildikcə əzilirdin.

Sevdin, inadkarlıqla sevdin. Mükafatın isə sevginin zəncirə vurulması oldu.

Ürəyim

Ah, bu qısqanclıq! Ürəyim ağrıyır. Yəqin qısqanclıqdan?! Bu inadkarlıq partladacaq səni ürəyim.

İztirab səni üzməsin, ürəyim!

Həyat gözəldir. Burax özünü həyatın axarına. Dustaq kimi olsa da, bu dünyada yenə yaşamaq istəyir insan.

Məndən üz döndərmə ürəyim, mən sənsiz yaşaya bilmirəm.

Qonşu

Qonşum tez-tez səfərə getdiyimizi görürdü. Və növbəti səyahətin birində bizə bir sual verdi:

-Yenə də harasa gedirsiniz?

-Bəli, səfərə çıxırıq - dedik.

Qonşu cavabında şirin bir ləhcəylə;

-Vallah bir gün bu yollarda qırılajaqsınız!-dedi.

Mümkünsüz

Niyə mümkünsüz işləri arzulayırsan, qadın?

Gecənin bu vədəsində Günəşi görmək arzusundasan. Mümkünsüz! Hanı Günəş? Bir bax, Ay da batır.

Ayı qaytarın! İlahi, dünya zülmətə döndü ki. Sabah yenə Günəş doğacaq!

Şükür

Evimdə işıq sönüb. Bəlkə də belə yaxşıdır. Göz yaşlarımı görən olmaz. Kim dərdimi bölər ki? Kim dərdimi ovuda bilər ki? İlahi, bu günə də şükür. Şükür Sənin varlığına İlahi, min şükür!

Bəlkə də...

Allah məni yaradanda taleyimi yazmağı unudub, deyəsən?! Qəmli vaxtına düşüb taleyimi yazanda, bəlkə də...

İlahi, sənə yalvarıram, məni yaddan çıxarma. Çoxdan yaddan çıxmışam, bəlkə də.

Ağla, ovunana qədər

Of, of… can bacı, yeddi gündür ki, səni ovuda bilmirik. Ovuna bilmirsən. Yanan ürəyinə bacın qurban. Sənə nə deyək ki, könlünü ala bilək.

Ala bilmirik könlünü, bacı, bilmirik. Sənə necə deyək ki, ağlama. Ağla, can yoldaşı, həyat yoldaşı ölən ağlar bacım, ağla.

Of, yanan ürəyinə mən adlı bacın qurban. Sənə təsəlli verə bilmirəm, ovuda bilmirəm səni.

Dünyasını dəyişən, səni yazıq edən yarına qurban. Ağla, ürəyin boşalana qədər ağla. Ağla, dərdini ovudana qədər ağla.

Sənə kür dedilər, ağlağan dedilər. Can bacı, daha bilmədilər ki, can dostu ölmək nə deməkdir. Bilmədilər, bacım.

Dərdinə qurban olaram, ağla. Dərdin səngiyənə qədər, kürlüyün keçənə qədər ağla.

Qoy sənə kür desinlər,
Kürdən də kür desinlər.
Yar əlin əlinə verib,
Ölkədən sür, desinlər.

Məzar

O məzar həmişə yol gözləyəcək. Sən də o məzarı hər zaman ziyarət edəcəksən. Amandı, göz yaşlarınla islatma məzarı.

Payız düşüncələri

Ağlağan payız

Pəncərəmi yağış döydü qüssə ilə. İlin ilk payız yağışı. Bu il ömrümə payız belə gəldi- qüssə ilə, xəbər vermədən. Bir yaş da belə getdi ömrümdən.

Bu payız mənim xətrimə dəydi. Ömrümün payızını yada saldığı üçün. Qayğı doldu ürəyimə. Qəmə gücüm çatmayanda ağlayıram, bu gün ağlayan payız kimi.

Gündüzü zülmət olanım

Ah, canı canımdan olanım, nə çəkdiyini bilirəm. Ay gündüzü gecə olanım. Gözünün itən işığına heyif. Heyif o yaşıl gözlərə.

Qaranlıq dünyana qurban olaram.

Ay işığı çöhrənə kölgə saldı. Ah canım, sənə bu qədər ağlama, demişdim. Demişdim, amma nə fayda. Ay gecəsi gündüzündən fərqli olmayan ciyərparəm. Göy üzünə, Yer planetinə, nur yağışa, ağ qar dənəciklərini görməməyə məhkum olanım. Ay ciyərparələrinin üzünü görməyənim, qəmli gözlərinə qurban olaram.

Ey gözü ənginliklərə dirənib, düşüncələri mavi, görüntüsü zülmət olanım, nisgilinə qurban olum!

Nur

Bu səhər nurla açıldı. Yağış yağır-payız yağışı. Hava tutulmasına baxmayaraq əhvalım xoşdur. Yağan yağışla bərabər ağacların budaqları titrəşir, yarpaqlar

soyuqdan üşüyürlər. Bir -birinə qısılan yarpaqlar hər an qopub, həyatla vidalaşacaqlarından necə də qorxurlar. Səmanın tutqun buludları pərişanlığa qərq olub. Sanki, kiməsə üzgündürlər. Yox, bu mən deyiləm, axı bu gün mənim əhvalım yaxşıdır.

Yuyulan nisgil

Budur, pəncərəmi döyən yağışlar məni salamlayır. Mən yağışa gülümsəməklə cavab verdim. Dodaqlarım pıçıldadı:

- Sabahın xeyir, ay Allahın nuru, bu payız səhərində xoş gəldin dünyama. Yəqin nisgillərimi yuyub aparacaqsan, deyilmi?

Etinasız

Nigaran-nigaran yerə səpələnən qızılı yarpaqlara heyfim gəlir. Çürüyüb getmələrini könlüm rəva bilmir.

Bu payız günündə pəncərəmdən boylananda küçəni süpürən qadına gözlərim sataşdı. Qadın yağışı vecinə almayaraq əlindəki süpürgə ilə həyətdəki xəzəlləri toplayır. Elə bil payızdan küsüb qadın, etinasızdı ətrafındakı gözəlliyə.

Heyif o yarpaqlara. Qadın hansı gözəlliyi süpür-düyünün fərqində deyildi.

Payız

Nə qədər ki, ömrüm var, sənin gəlişini istəklə qar-şılayacağam, payız. Ömrümə xoş gəldin, nur dənə-cik-lərinlə.

Buludlar yağış yüklüdür. Yağ başına dönüm, yağ. Nur dənəciklərin həyatın barıdır. Ey payız yağışları, xoş gəldin dünyama!

Qadın

Yağışa baxmaq üçün pəncərədən boylanıram. Qəribədir, yağan yağış altında bir qadın həyətdə qurulan turnikdə idman edir. Elə bil yağış onu islatmır. Qadın dartılır, lakin bədəninin çəkisinə gücü çatmır. Odur ki, idman etmək fikrindən daşınır və yüngül və asta addımlarla uzaqlaşır. Özü uzaqlaşır, lakin varlığı gözlərimə həkk olub qalır.

Həyat gözəldir!

Budur, ümidlə pəncərəmi açır, səhərin gözünün içinə baxaraq səmanın üzünə gülümsəyirəm. Və ciyər-dolusu nəfəs alıram. İlahi, həyat nə gözəldir! Yaşamaq necə şirinmiş! Atılmağıma baxmayaraq!

Salam

Səmanın alatoranlığı içərisində süzən şəhərin nurunda və televiziyada səsləndirilən muğamın sədaları altında hər birinizə salam söyləyirəm, ey insanlar!

Düşüncələr

Yenə düşünürəm...

Nə yaxşı ki, düşünmək tərzi varmış, nə yaxşı ki, heç kim heç kimin düşüncələrinə müdaxilə etmir. Daha doğrusu, müdaxilə edə bilmir. Bu qabiliyyəti insanlara

vermədiyi üçün Allahıma təşəkkür edirəm. Məni öldürün, amma düşüncələrimə müdaxilə etməyin, onsuz da mümkünsüzdür!
Eh, mən yenə düşünürəm...

Yüyürən düşüncələr

Ümid namərddir

Düşüncələrim bəzən cilovsuz ata bənzəyir. Bilirsinizmi, düşüncələrim məni haralara aparır? Keçmişə-uşaqlıq çağlarıma.

Bəzən də xəyal atım məni düşüncələrimin tərkində gələcəyə aparır. Ümidlə yaşamağa. Ümid də ki...

Ey ümid gəzən bədbəxtlər, özünüzü aldatmayın boş ümidlə. Mən ümidi bir ömür boyu axtardım, tapmadım. Yoxdur, qaçıb!

Ya da, mən gedim

Çıxın gedin. Ya da, mən çıxım gedim, ayağımın aparacağı yerə. Tənhalığı necə də sevirəm. Sükunətin səsinə qulaq asmaq və bir də Allaha yaxın olmaq istəyirəm. Hər zaman suya susadığım kimi Allahıma susayıram.

Allah eşqinə

Allahım, hər gün içimdə bir qərib ağlayır. O, qərib içimdəcə yetimləşib. O qədər ağlağandır ki, içimdəki bütün fikirlərimi yuyub aparır göz yaşlarıyla bu qərib. Yığılmayın başıma. Çıxın gedin, gedin Allah eşqinə. İçimdəki qəriblə tək yaşamaq istəyirəm. Gedin, gedin Allah eşqinə.

Anlamıram

Cırıldayan qapı... Gəldin?! Yox, o ayaqlar səni mənə gətirməyib. Sən başqa mətləb üçün bu qapını açmısan.

Məni görəndən sonra alışdırdığın bu siqaret? Hirsləndin? Səni anlamıram.

Anla

Ah...h...Gözlərim gözlərinə sancılanda susqunlaşdın. Yenə küsdünmü həyatdan. Mən günahkar deyiləm! Anla, nə olar anla. Sənsiz bu dünya mənə əzabdı.

Qaldı

Səndən qaçdım. Amma yanından gedən ayaqlarım idi, ürəyim yanında qaldı.

Düşünürsənmi?

Babadağın qarına dönmüsən. Məndən soyudun. Heç məni düşünürsənmi? Bilirsənmi, nələr çəkdiyimi? Haradan biləsən axı?! Məni dərdimlə baş-başa buraxdın. Dərdimi dəmə qoydum, canım. Qaşıq-qaşıq içirəm. İçirəm şərbət kimi.

Şərqin səması

Hamı yatıb, yuxunuz şirin olsun! Gecənin bu vədəsində yəqin yuxu çox şirindir?! Amma mən yata

bilmədim. Gözlərimdən yuxu harasa qaçdı. Yerini tapa bilmədim. Odur ki, səhəri dipdiri gözlə açdım.

Pəncərəmdən alatoranlığa baxıram. Şərqin səmasından boylanan qan rəngli səhərin alatoranlığı içərisində yeni bir həyat başlayır.

Hansı ümid

Ümid? Hansı ümid dostlar? Mənim daha heç nəyə ümidim qalmadı. Cəmil Zəbullaoğlu "Gözlə, ümid gələcək", deyir. Amma inanmıram. İllərdi gözləyirəm, gəlmədi. Məni gözlədə-gözlədə durdu. Məni illərlə ağlatdı. Namərddi ümid!

Ümid elə ümiddi də- adından bəllidir. Ümid sözündə reallıq görürsünüzmü? Mən görmədim, vallah. Eh, Cəmil müəllimdir də. Bəs siz nə deyirsiz dostlar?!

Şeytan

Deyirlər, hərənin içində bir şeytan gizlənib. O şeytan ki, xoş arzuları, amalları, düz sandığımız əqidəmizi bizdən oğurlayır. O şeytan ki, bizi düz yolumuzdan daima azdırmağa can atır.

O şeytan ki... Təəssüf ki, bəzən bizi şeytan çağırır. Allah o gündən saxlasın!

İnsanlıq

Həsrətin qəlbini sökə-sökə, paxılın gözünü tökə-tökə yaşamaq gərəkdir. Yaşa Allahın sənə verdiyi ömürü insanlığınla.

Esse

Sənə gözümdolusu baxa bilmədim. Göz yaşlarım tor olub bağladı gözlərimi. Kaş həqiqəti sənə anlada bilsəydim. Kaş məni anlasaydın. Bilirəm ki, mənə inanmırsan.

Rabitəsiz danışıqlarım, çaşqınlığım şübhələrini bir daha artırdı. Səni əsla aldatmadım!

Əzizim

Adam sevdiyini heç kimin ayağına vermir, axı, əzizim.

Faydasız

Sevdiyim üçün səni ağrı-acımla yükləmək istəmədim. Ah, belə olacağını bilsəydim danışardım hər şeyi. Həyatımda baş verən hadisələri, olub-bitəni kaş səninlə bölüşəydim. Bəlkə də o zaman hadisələr baş verməzdi. Lakin gec də olsa hər bir şeyi olduğu kimi danışdım. İnanmadın. Qəlbimi üzən qüssəni hardan biləsən axı?! Nələr çəkdiyimi hardan görəsən axı?!

Ölmək istəyirəm

Hər gün yüz dəfə ölüb-dirilirəm. Yüz dəfə qəlbimin nalələrinə qulaq asıram. Hər an qəlbimin dayanmaq təhlükəsini yaşayıram. Birdəfəlik ölmək üçün Allahın iznini gözləyirəm, ölmək istəyirəm!

Günahsız

Səndən doymadım. Nə də həqiqəti sənə anlada bilmədim. İnanmadın. Səni elə belə də tanımışdım. Bilirdim məni bağışlamayacaqsan, günahsız olduğum halda belə. Amma günahsızlar bağışlanar, əzizim.

Hanı sənin Allahın

Hər şey Allaha əyandı. Hanı sənin Allahın? Heç zaman sənə sarıla bilmədim, istəyimi açıq-aşkar deməyi bacarmadım. Xoş sözlərimi daxilimdə boğdum.

Amma gözlərim səni oxşadı, dilim ağzımda qovruldu - səni sevirəm, söyləmək üçün. Qəlbim sənin üçün titrədi, əllərim sənin üçün yarpaq kimi əsdi. Sənə qurbanam, dedim, ürəyimdə. Dedim…çox şey dedim, ürəyimdə. Dedim ki, Allahına qurban olaram.

Bəs sən neylədin? Məni atıb, getdin! Bəs sənin Allahın hanı?

Nifrət

Nə qarşına çıxmaz, nə də səni narahat etmərəm, daha. Özümü ovuda bilmirəm sənsiz. Sonuncu dəfə səni görəndə mənə elə nifrətlə baxdın ki... buna layiq deyiləm.

Özümdə güc tapa bilmədim ki, sənə sarılam. Həsrətli qaldım dodaqlarına, əllərinə. İntizar ayrıldım səndən. Lənət olsun baisə.

Həyatın epiloqu

Hardasan Fira? Bəs sən Gulya? Baş qoyub ağlamaq üçün dizinizə ehtiyacım var. Məni yalqızlığa məhkum edib, ayrılıb getdiniz.

İlahi, dərdlə qucaqlaşmaq demə, Əzraillə öpüşmək kimi imiş.

İki ildə neçə ölü basdırdım. Bu boyda ağrının-acının içində çabaladım. Lakin can üstündə olan sevgimi basdıra bilmədim. Can verib …qurtarmırdı ki, qurtarmırdı. Sonunda təəssüf ki, sevgim də öldü. Yandı cismim, alışdı ruhum.

Hər gün ağladım. Sevgimin acısını ölən doğmaların acısına qoşdum və hər üçünə yas tutdum.

Əzizlərimin qəbrini qəbirstanlıqda ziyarət edə bilirəm. Bəs ölən sevdamı harada ziyarət edəcəyəm?!

...nə olar qayıt!

Yaşamaq gözəldir, amma sənli dünyada. Mənim dünyamda sən yoxsan, əzizim. Yaşamağımın da mənası yoxdur. Qəribəm, yetiməm, kimsəsizəm sənsiz. Qayıt! Nə olar qayıt! Bağımda çiçəklər sənsiz, evim sükut-sükunət sənsiz.

Çırpınan xəyal

Dörd divar arasında xatirələrin, xəyalların çırpınır. Əllərinin izləri qapımda, divarımda, çarpayımda ağlayır. Baxışların aynaya hopub, mənə yad kimi görsənir xəyallarımda. Gülüşlərin çilik-çilik olaraq evimin

kandarına səpələnib. Sənsiz otağımda xəyalların var! Düşüncələrim ağlayır sənsiz.

Hardasan?

Xəyalların mənə bəs etmir. Mənə xəyalların əzab verir. Yox, yox, şikayət etmirəm. Sadəcə səni arzulayıram. Gözlərim hər yerdə arayır, axtarır səni. Sənli dünyamı haraylayıram. Hardasan?

Düşündürən düşüncələr

Süzül, gəl

Evimin pərdələri pəncərədən yollara boylanmaq üçün asılıb, sanki. Gəlişini görmək üçün pəncərəmdəki zərif tülləri qucaqlayıb gözlərimi sonsuzluğa dikmişəm. Bu sonsuzluq içərisindən bulud kimi süzül gəl, gəl, əzizim, gəl!

Güc ver

İlahi, sənə əyandı. Əzablarımı görürsən. Mənə güc, taqət ver, gedim salam verim küsən sevdama. Bu salam görəsən, həyatımı dəyişərmi?

Hə, əzizim gəlirəm, gəlirəm sevgimin bağlanan qapısını açmağa.

Görəsən

Deyirəm, görəsən, sənə salam versəm, dünya məhvərindən qopub tökülərmi?

Dünya məhvərindən qopsun, silkələsin, istərsə də bu dünya dağılsın…yenə salam verəcəyəm!

Atılmış

Elə qorxurdum ki… atılmaqdan. Bilirdim ki, bu, nə vaxtsa baş verəcək. Baş verdi də. Məni tərk etdin, öz də bayram günündə. Məni məndən alıb getdin. İlahi, çəkim ağır olmasa da, qəm yüküm necə də ağırdır. Köhnə, qara kostyumumu əynimə geyinib "28 may"

stansiyasından dəniz sahilinə enirəm. Qaranlığı biçə-biçə dənizə yaxınlaşıram. Özümü sulara qərq etmək istəyirəm. Hansısa bir qüvvə məni saxlayır: -Amandı, dayan! -deyir. Ruhum uçunur, beynim düşünür;

-Səni istəyirəm, səni, əzizim, qayıt. Bu bayram günü məni peşiman etmə, qayıt!

Gözüyaşlı cavan şam ağacının altına çökürəm. Elə bu an kim isə zəng çalır. Bəlkə odur?!

-Yox, deyilmiş.

Gecdir. Artıq getməliyəm. Çıxım gedim kimsəsiz mənzilimə. Get, ah zavallı, atılmış canım. Get kimsəsiz evinə.

Qorxurdum

Kədərimi necə sahilə aparmışdımsa, eləcə də evimə qaytardım. Tək qayıtdım, tək. Sənsizəm, tənha. Ah, zavallı canım! Elə qorxurdum ki, atılmaqdan.

Yeni il

Üzümüzə gələn təzə ilimiz At üstündə təhvil olacaq. Sizi bilmirəm ötən dörd ili həyatımdan zorla qovub çıxarmışam. Amma nə fayda ürəyimə iz salıb getdi.

Yenə deyəsən, yapışacağam bu ümidin yaxasından. At ili gəlir axı. Muraddır da! Baxaq görək yel qanadlı at həyatımıza nələri gətirəcək gəlişi ilə?!

İnşallah, hər halda pis olmaz. Qeyd etdiyim kimi at ilidir, amma atın rəngini bilmirəm. Ağ at olsa sevinərəm.

Xoş gəldin, təzə il

Yeni ili qəbul etdik. Baharı da qarşılayarıq inşallah. Beləliklə, fəsilləri yola salırıq. Demək ki, yaşayırıq. Allah-Təala hər birinizə xoş günlər nəsib etsin, inşallah!

Səması aydın və sakit bir səhər açılır Bakıda. Yeni ilimizə bir neçə gün qaldı. 2014-cü il bizə nə vəd edir görəsən?

Susdum
Və yaxud
Donmuş və susdurulmuş zaman

Səması aydın və sakit açılan 2014-cü ilin səhəri mənim üçün sakit gəlmədi. Heç bir ümid də vəd etmədi. Həyatın fırtınalarına, burulğanlarına düşdüm. Qarşıma çıxan maneələr məni əzab və sükuta bələdi. Ətrafımda zülmət və qaranlıqlar dolaşdı. Gündüzlərim gecələrimdən fərqlənmədi.

2014-cü il! - həyatımın ən ağır ili. Sükut və sükunət bu ildə varlığıma hakim kəsildi. Əslində 2014-cü ilin soyuq və qara yelləri 2013-cü ildən əsməyə başlamışdı. Həyatımda əsən gilavar, sarsar küləyinə çevrildi. Məni məndən qoparıb apardı. Sovurdu məni küləkdə sovrulan dən kimi, ayırdı özümü özümdən. Susdum.

Bu il ən yaxın doğmalarımı itirdim. Lakin səsim çıxmadı. Daxilimdə isə fəryad və hayqırıqlarım içimin divarlarını silkələyirdi. Təslim oldum həyatın iztirablarına. Susdum.

İş həyatımda bir sıra sıxıntılarım oldu. Susdum. Dostlar və tanışlar niyə "facebook"da yoxsan deyəndə, susdum. Yaxınlar və doğmalar niyə görünmürsən deyəndə, cavab verə bilmədim. Canlı ölü idim, sanki.

Allaha sığındım və özümə tapındım. Var ola-ola yoxa çıxdım. Və nəhayət ki, 2015-ci ilə çıxdım. Və bir sıra sıxıntılardan da çıxdım. Şükür Allaha deyə-deyə 2014-cü ilin qara əllərini sinəmdən güc-bəla ilə qopartdım.

Bəli, dostlar, 2014-cü ildən bir kəlmə də qələmə almadan, sizə ağrılı –acılı iztirablarımdan bəhs etmədən və yaşanan hadisələrlə sizi tanış etmədən keçid alacağıq 2015-ci ilə.

Tarix: Sanki donmuş və susdurulmuş,
mənə əzab və süküət gətirən 2014-cü il.

Özündən özünə məktub
Və yaxud
Cavabsız suallar

Salam, qadın. Bu, sənsənmi, səhifələrdə həyat lövhələri qeyd olunan, sətirlər arasında çırpınan, özünü axtaran? Yox, bu, sən deyilsən! Əgər sən olsaydın...

Hə, qadın, demək, olar ki, bu sənsən! Fərziyyələrini həqiqətlərinə qovuşduran sən, yaşantılarının yüzdə birini qələmə almayan, susan sən, çətinliyə düşən və ağlamayan, yox, yox ağlayan sən. Özünü əzaba məhkum edən, xəyallarını qoruyan sən. Bu sənlər içərisində bir mənlik iddian varmı, qadın? Haradan gəlib, haraya getdiyini deyə bilirsənmi?

Sən yəqin ki, Tanrı yolçususan, olumdan ölümə qənşər gedirsən. Vardan yoxa çıxan, yoxdan isə vara can atan varlıqsan, ey qadın, deyilmi?

Ziyarətçisən, yolçusan və qədərinə bağlısan. Qadın, məlum ki, dünya yolçususan! Bu dünyanı ziyarət etməyə gəlmisən?!

Adı adam olan kəs, ziyarətin qəbul olsa cənnətməkan olacaqsan, bilirmisən?

-Bəs bu dünyanın dərdi sənəmi qaldı ki, qələmə aldığın həyat hekayələrində kədərə baş vurur, qəm dağına çıxırsan? Bəs sənin qədərində sevinc payın yoxmu, qadın?

Bu sualların cavabı bəlkə də ardıcıllıqla yazdığın sətirlər arasındadır. Buyur, oxucu, bir həyat yaşantıları, iztirabları, sevinc və fərəhi səni maraqlandırırsa oxumağa davam et.

Bəs sən, ey qadın, yaşamağa və yazmağa davam edəcəksənmi?

Sonsuz düşüncələr

Duyğu

Çiçəkli bağçamın ortasında qərar tutan çarhovuzdakı suya ayaqlarımı sallamaq keçdi könlümdən. Ayaqlarımı suya sallamaq üçün çarhovuzun kənarındakı dalğavari daşın arasında əyləşdim. Və o andaca özümü dəvə üstündə oturmuş kimi hiss etdim. Yerimi rahatladım, kürəyimi çarhovuzun dirəyinə söykədim. Bu dəfə də kəcavədə hiss etdim özümü.

Çiçəkli bağçam sultan bağını, cəhcəh vuran quşlar cənnət quşlarını xatırladır mənə. ...Nə qəribə duyğular yaşayıram...

Ey, Ulu Şirvanlı, qalx, get, işinin arxasınca. Bir az da burada qalsan özünü şahzadə kimi hiss edəcəksən.

Qoca

Həyat qəribədir, Qoca. Elə sən də qəribəsən! Bu nədir, üst-başın niyə toz-torpaq içərisindədir? Yəqin yenə evə getməmisən?! İlahi, sənə nə qədər demək olar ki, küçədə yatıb qalma. Yenə harada gecələmisən, Qoca?

Ah, Qoca, Qoca...sənin düşüncələrinlə həyat tərzin təzadlıdır axı. Heç nə anlamıram, Qoca. Niyə səfillərə qoşulursan axı?! Susursan. Əllərin niyə titrəyir bəs? Xəstələnmisən nədi?!

Yenə kəsdirib durmusan küçənin tinində bu halınla. Sözümə qulaq as, çıx get evinə, get Allah eşqinə!

Cavabsız sual

...düşüncələr onu yordu. Amma beynini döyəcləyən, çırpınan suallarına cavab tapa bilmədi.

...kimdir bu, Qoca? - davranışından və söhbətlərindən əsilzadəyə oxşayır. Həyat bilgisidir, sanki.

Qadın düşünürdü...Və birdən kimsəsiz otağında sanki Qoca yanındaymış kimi hündür səslə; - Sən kimsən, Qoca? -soruşdu.

Cavab gəlmədi. Yalqız yaşayan qadına düşüncələrimi cavab verəcəkdi?

Dilənçi

20 yanvar metro stansiyasının qarşısında hündürboylu, simasında heç bir ifadə daşımayan 30-35 yaş arasında olan kişi oturduğu səkidən narazılıqla qalxdı və kimdənsə qaçırmış kimi yola düzəldi. Etinasız baxdıqdan sonra Şamaxinka adlanan məkana tərəf üz tutdu. Mənə elə gəldi ki, adamda uzağa getmək istəyi yoxdur. Dəqiq ifadə etsək, zaman öldürənə oxşayırdı.

Üst-başı tamamilə çirk içərisində olan adamın arxasınca addımladım. Və birdən o, qarşıda oturan, sol qıçı olmayan adama əlini uzadaraq;

- Bəs bunu buradan niyə qovmursan?-deyərək, arxadan gələn, görmədiyim polisə müraciət etdi.

Səki kənarında arxayın oturan, üz-gözündən yazıqlıq tökülən çolaq kişi ona sarı gələn polisi görən kimi ayağa qalxmağa tələsdi. Qıçı tək olduğundan çətinliklə qalxdı. Dördayaqlı dəmir çəliyinə söykənərək uzaqlaşdı. Lakin çox getmədi, çəliyinə söykənib dayandı. Polis ona çatıb, qışqırdı.

- Ə, sənə nə qədər demək olar ki, burada dilənmə! Rədd ol burdan!

Kişiyə yazığım gəldi. Polis olmasaydı ona sədəqə verərdim, düşündüm. Üzümü polisə tutub;

-Yazıqdır, niyə qovursunuz, bir qıçı da yoxdur, bəlkə çörək puluna ehtiyacı var?!

-Xanım, siz yarımca saat onu güdün, onun necə yazıq olduğunu görəcəksiniz. O, az müddətə bir papaq xırda pul toplayır. Haqqında polis məlumat toplayıb ki, Badamdarda villada yaşayır. Kimə yazığınız gəlir?! Siz piyada gedib-gəlirsiniz, onu isə hər gün "LEXUS" markalı maşın sürən oğlu aparıb, gətirir.

Ögey ana

Mənə "ögey ana" dedilər. Mən ögey anayammış. İlahi, görəsən, məni başa düşən varmı? Yəqin ki, var, mənim kimilər.

Məyusluq

Məni məyus etdin, Qoca. Görürsən, əsəbimdən sənə salam belə verə bilmirəm. Sənin haqqında eşitdiklərim məni narahat və məyus edir. Doğrudanmı, bu belə olub...Deyilənlər doğrudurmu?

Guya sən əzazil adam olubsan, guya sən yaxşılıq etməyi bacarmırsan və daha nələr...nələr...

İnana bilmirəm, Qoca. Daha doğrusu inanmaq istəmirəm eşitdiklərimə. Yox, sən belə deyilsən, düzdürmü?! Danış, de, ki, haqqımda deyilənlər düz deyil!

-Danış, susma Qoca.

Tarix; Zamanı unutdum. Daha doğrusu unutmaq istədiyim zaman.

Qusar

Qusar! Gözəl və təkrarsız təbiətə malik olan bu bölgəyə müəllim kollektivi ilə getdim. Yaddaqalan bir gün yaşadım.

Bu səfərdə tanıdığım bir simaya daha yaxından bələd oldum. Tanıdığım - təəssüf! demə, tanımadığım kəs...

Qnoka

-Bu, heyvan qatırdı?

-Yox, səhviniz var, atdı.

- Necə yəni, üzünü görmürsən, bəyəm?!

-Görürəm. Məhz buna görə də sözümü təsdiqləyirəm.

Mübahisəni kəsmək üçün Nazənin müəllimə ilə birlikdə atın sahibinə yaxınlaşdıq. Ay oğlan, bu atdır, ya qatır?

Oğlan cavab verir:

- At.

Adı nədi?

-Qnoka.

-Bəs sənin adın nədi?

-Ziyadxan.

Ziyadxan...vaxtsız dünyasını dəyişən doğmalarımdan biri. Kaş ki, oğlanın adını soruşmayaydım.

“Nissan Juke”

Çoxdan idi ki, “Nissan Juke” markalı minik maşınının xəyalı gəzirdi başımda. Və bu gün nəhayət ki, sükan arxasında əyləşdim. Yox, yox, düz anlatmadım. “Juke” adlı minik avtomobili almamışam. Sadəcə satan adamdan bir dəqiqəlik sürməyi xahiş etmişəm.

Mənə güldünüz deyilmi?! Siz gülməyinizdə olun, mən də qurdumu öldürməkdə.

Nağıl dünyam

Mənə elə gəldi ki, dünən və bu günüm hədər oldu. Şənbə və bazar günlərində nağıl kitabımın davamını yazacaqdım. Təəssüf ki, olmadı.

Əslində yaşadığım dünyam-reallıqda bir nağıldır! Nağıl kitablarında oxunur; biri vardı, biri yoxdu...

Mənim dünyamda isə çox şey yox idi, yalnız və yalnız düşüncələrim vardı...Dünyamı dəyişəndən sonra isə nəvələrim deyəcək;

-Biri vardı... biri yoxdu... bir nənəmiz vardı...

Təşəkkür

Nağıl dünyamdan söz açmışkən qeyd edim ki, “Nağıllar” adlı kitabımın çapa hazırlanması üçün Xəyal Rzaya təşəkkür borcluyam. Düzdür, bu kitabı yazmağı düşünürdüm. Lakin kitabın yazılması və çapa verilməsi-hadisələrinin cərəyanı tezləşdi. Xəyal müəllimin “Ağ ayaqqabı” adlı kitabıma hazırlatdığı üz qabığı xoşuma gəldi və üzlüyü növbəti nağıllar kitabına saxladıq. Təşəkkür edirəm, Xəyal Rza.

Bağışla

Salam, Qoca. Boynuma alıram ki, sənə könülsüz salam verirəm. Bağışla. Ah, Qoca, haqqında deyilənlərin yalan olduğunu isbat edə bilsən...

Lənət şeytana

Qoca, içkili qadın cavan oğlana yaxınlaşdı.

-Siqaretin var?

-Var, -deyə oğlan cavab verdi.

-Birini ver.

Oğlan siqaret çıxardıb, qadına uzatdı. Qadın siqareti damağına qoyub;

-Qardaş oğlu, yandır, dedi.

Oğlan tez-tələsik cibindən alışqanı çıxarıb, qadının damağına sarı uzatdı. Qadın sinədolusu nəfəs aldı və püf..f...f... edərək tüstünü oğlanın üzünə buraxdı. Oğlan öskürdü.

Qadın sağ ol, demədən uzaqlaşdı. Oğlan sərxoş qadının arxasınca mat-məəttəl baxaraq;

-Allahu Əkbər! Bu nə iş idi? Bu müqəddəs Ramazan bayramında kişilər dilinə araq almırlar, o ki, qala qadınlar ola.

Oğlan; - Şeytan qızı, şeytan. Lənət şeytana! deyib, uzaqlaşan qadının dalınca deyindi.

Düşüncə

-Məni niyə öpdün? Gəlib yanında dayananda elə zənn etdin ki; məni öp, demək istədim düşüncələrimdə?

-Yox, bilirəm bunu demək istəmədin. Gəlib yanımda dayananda və mənimlə birlikdə güzgüyə baxanda yəqin ki, fikirləşdin; görəsən, sənə yaraşıram ya, yox?

-Hm..m.. Bu sualı illər öncə düşünməliydim. Bunu düşünmək mənim üçün gec deyilmi?! İndi isə yalnız yaraşmalıyam!

Mərhum

Tələsmə, maşınlasan. Ehtiyatlı ol. Onsuz da o keçinib, çatmayacaqsan. Allah rəhmət eyləsin.

Budur, susub və bir daha da danışmayacaq. Üzərinə sərilmiş mələfəni qaldırdım-nəşin yanımızda, bəs ruhun hara uçdu, mərhum?!

Əbədi mənzil

Tabutun ləngər gedir. Amma özün deyəsən, əbədi mənzilə tələsirsən? Bir göz qırpımında uzaqlaşdın çiyinlərdə, qohum-əqrabadan.

Gedirsən...hara?

Kitab

-Alo, eşidirəm.

-Salam xanım.

-Salam.

- Sizin “Ağ ayaqqabı” adlı kitabınız çapdan çıxdı.

-Sevinirəm. Lakin sevincimi bu an bir kimsəylə bölüşə bilmirəm. Çünki, ətrafımdakı insanların üzündə

dərin kədər, evdə isə son mənzilinə hazırlaşan mərhum var.

Bakının küçələri

Səfilə dönmüsən. Bütün park və xiyabanları dolaşırsan. Qoca adamsan, get evinə dincəl. Özün demişkən; gəzirsən Bakının küçələrini.

Ruhuna salavat

Salam, ata. Mən gəldim. Çoxdan idi ki, səni ziyarət etmək istəyirdim. -Ramazan bayramın mübarək!- ata.

Susursan. Səsini eşitmək mümkün deyil. Olsun, eybi yox. Amma mən danışacağam.

-Hə, ata, şəkildən baxdığın gözlərində dinclik görürəm. Allaha şükür.

Burada kim isə olub. Qəbrin üzərində düyü və şirniyyat var. Səninlə məndən əvvəl kim bayramlaşıb ata? Bəs çərçivəyə salınmış ərazinə kim od vurub belə? Qəbrinin ətrafını kim isə - hansı övladınsa təmizləmək istəyib yəqin, belə üsulla. Bu xoşuma gəlmədi-ata. Nə isə...

Dualar səninlə olsun,- ata! Ruhun şad olsun!

Ruhuna salavat; Allahun Məsəlli əla Muhəmmədin və ali Muhəmməd!

Qəbirdən gələn səs

Qulaq as, qəbirlərdən səs gəlir. Qulağımı atamın qəbrinə söykədim. Sonra yan tərəfə qulaq asdım.

-Hanı, eşitmirəm.

-Qarşı tərəfə qulaq ver.

Bu nə səsdir, deyəsən, uğultudur.

Hə, elə onu deyirəm. Bütün qəbirlərə qulaq assan bu səsləri eşidərsən.

Yəqin sonsuzluğun səsi belə olur, qardaş.

Oruc

Orucluğun son günündə balaca qızcığazı anası çağırır:

- Tomka, gəl çörək ye.

-Mən orucam!- deyə beş yaşlı qız hər gün nənəsindən eşitdiyi sözü təkrarlayır. Hamı gülür.

Bəlkə də gülməli deyil, bu, sevindirici haldır. Çünki, bu balaca qızcığaz müsəlmançılığın qayda-qanununu öyrənir.

Özünə fikir ver

Bəli, qoca eşidirəm. Hə, düzdür çoxdandır səndən xəbər tutmuram. Yaxşı de, görüm, bu nə üst-başdır? Özünə fikir ver, Qoca.

Körpə

Təzə körpə dünyaya gəldi. Necə də sevincliyəm, İlahi. Ata-anasının adı Duyğu olan körpə. Bu körpə "Ağ ayaqqabı" adlı şeir kitabımdır.

Hə, onu da qeyd edim ki, bu körpəni ovuclarım içərisinə qoyan Xəyal Rzaya təşəkkür edirəm, çəkdiyi zəhmətə görə. O an sevincimi məhz bu insanla böldüm.

Düzdür, Xəyal müəllim sevincimin şahidi oldu, nə yaxşı ki, bu yolda çəkdiyim iztirabların şahidi olmadı.

İttiham

Hə, bu mənəm. Dediyin o xoşagəlməz hadisəni...Hm...m...bəli, qismən də olsa yaşadım. Dəfələrlə təkrarladığın, mənə çatdırdığın sözün üstünə dönə-dönə gəlməklə məni təhqir etmək fikrindəsiniz, bilirəm. Təbrik edirəm, bunu bacardınız. Üzdə göstərməsəm də, daxilimdə necə pərt olduğumu Allahım bildi, amma sən yox.

Lakin Allahım onu da bildi ki, işləmədiyim günahları, və ittihamları üzümə vurmaqla olan-olmaz günahlarımı və babalımı da götürdün boynuna.

Şikayət

Nədi Qoca, məndən mənə niyə şikayət edirsən axı, özü də salamsız-kəlamsız? Bulud kimi dolmağına bax, dayan görək, sən Allah. Uşaq kimi ağlayacaqsan elə bil bu dəqiqə. Cəmi-cümlətanı sənə bir həftə salam verməmişəm.

Sabahın xeyir

Sabahın xeyir, dünya, sabahın xeyir Bakı, sabahın xeyir, evim-eşiyim, sabahın xeyir can yoldaşım!

Vaxt: səhərin alatoranlığı

Əhli-qüburlara salam

Bu gün əhli-qüburlara salam verməyə gedəcəyəm. Amma onlara sabahın xeyir deyil, Əssalamun əleyküm ey əhli-qüburlar, deməliyəm.

Ağ ayaqqabı

28.07.2015 tarixində "Ağ ayaqqabı" adlı kitabımın imza günü keçirildi. Sevincliyəm. Mən sevən və məni sevənlərin ətrafındayam. İlahi, bu mənim körpəmdir-yeni doğulan körpəm. Baxmayaraq ki, adı Ayaqqabıdır.

İmza günü

Bu da təqdimatın sonu. Hamı çəkilib getdi. Sağ olsunlar, bu isti yay günündə böyük əziyyət çəkib, gələnlər.

Hə, budur, bir mən qaldım "Kitabevim"də, bir də kitab evinin əməkdaşları. Oturub qalmışam kitabxanada. Ürəyim təntiyir.

Budur, mənə hədiyyə də gətiriblər. Aç bax. Onsuz da bilirəm - enerji içkisidir. Aç, iç. Yox, bu maye mənim ürəyimin yanğısını söndürmür.

Bu kreslo mənim yükümü nə qədər çəkəcək bəyəm?! Qalx get, Ulu Şirvanlı! Özünü təbrik et və get.

Xəzan düşüncələr

Boşluq

Sevincim əriyib, gedib. Darıxıram. Hara isə getmək istəyirəm. Amma hara və niyə? Bilmirəm. İçimdə boşluq var. Boşluğu doldurmağa təbiətin göz seyrinə çıxım barı.

Sən də

Salam, Qoca! Məni tanıyanların və sevənlərin hamısı təqdimata gəlmişdi. Amma sən yox. Mən sənin də gəlməyini arzulayırdım. Gəlib bir kənarda əyləşərdin barı. Eh, Qoca...Qoca...

Hardasan, Qoca

-Alo.

-Bəli.

-Hardasan?

-Eh, baş alıb getmək istəyirəm dənizin kənarına.

-Yox, yox, lazım deyil. Gəl bura.

-Yox gəlməyəcəyəm. Darıxıram.

Dost çağırışına getmədim. Bəs hara gedim, görəsən?

Hardasan, Qoca? Sənlə dərdləşmək, içimdəki boşluğu doldurmaq istəyirəm.

Ölmə, Qoca!

Məgər sənə deməmişəm səliqəli geyin. Qocalığı bəhanə etmə. Qəbul etmirəm.

...Qocalıqdan az danış! Ölməkdən əsla! Belə sözlər danışıb məni qorxutma, xahiş edirəm. Qorxuram, səni itirməkdən.

-Ölmə ha, Qoca!

Sənsiz

Özümü necə də kimsəsiz, yalqız hiss edirəm. Həyat bu an mənim üçün darıxdırıcıdır. Özümü boşluqda hiss edirəm. Yeknəsək və darıxdırıcıdır ətrafım.

Hm...m...m...yəni... Sənsiz...

Qəbiristanlığa səyahət
(silsiləsindən bir parça)

Maşın özünü Yasamal qəbiristanlığının qarşısına atır. Və sonra da özünü iki maşının arasına dürtür. Üzünü qəbiristanlığa tutub, son nəfəsini verirmiş kimi xırıldayıb, dayanır. Elə bil son mənzili bu qəbiristanlıq olacaq.

...Və qapısı açılır. Sükan arxasından sahibə düşür. Qadın qəbiristanlığa sarı gedir. Tələsir. Molla da arxasınca yüyürür. Qadın mollaya əhəmiyyət vermir, ürəyində:

-Əl çək, yalançı, yaramaz, deyir. Guya molladı-adını molla qoyub.

Salavat

Qəbiristanlıq əhli-qüburlarına salavat!

Allahunməssəlli əla Muhəmmədin və ali Muhəmməd!

Salam ölülər! Əssalamunəleyküm ey əhli-qüburlar! Nəhayət ki, görüşünüzə gələ bildim.

Kimsən?

Qadın bir əlində kağız-qələm, digər əlində mobil telefon qəbiristanlığa girdi. Bir neçə qəbir adlayıb, qəbiristanlığın dərinliyinə sarı addımladı.

Qarşısına çıxan taxta oturacaqda əyləşdi. Üzbəüzdəki qəbrə diqqətlə baxdı. Çoxdan salınmış qəbir idi. Təxminən otuz il bundan əvvəlki tarixə təsadüf edilirdi. Başdaşı üçün düzəldilmiş oval şəkil qopub yerə düşmüşdü. Kim isə şəkili qaldırıb sinə daşına söykəyib.

Qadın diqqətlə şəkilə baxdı. İlahi, bu ki, qızcığazdır. Qızın şəkildəki gözlərindən məsumluq yağırdı.

Qadın pıçıldadı:

-Ey mərhum, qızcığaz, təəssüf!

Boşluq

İlahi, qəbiristanlıqda qurulan cəh-cəlala bax. Ey mərhum, bu dəm-dəstgah nəyinə gərəkdir?! Hətta qəbrin sağ və sol tərəflərində ağ daşdan döşəmə də salınıb.

Qadın başdaşına yaxınlaşdı. O, addımını atdıqca ayağı altından çıxan səslərdən torpaq altındakı boşluğu

hiss etdi. Dikdaban ayaqqabıları ilə bir neçə dəfə daş döşəməyə taqqıldatdı.

-Hə, düz tapmışam, aşağıda boşluq var-deyə düşündü. Qəribədir, bu dünyanın boşluğudur, yoxsa qəbrin?

Vals

Bəs bu qəbirlərin arasından necə keçəcəyəm?- düşündü, qadın. Qarşıdakı hasarı aşmalıydı.

-Hm. Bağışla, mərhum, üstündən adlayacağam. Qəbrə yaxınlaşdı. Başdaşındakı şəkilə baxdı.

- Ey qadın, sən ki, azərbaycanlıya bənzəmirsən şəkildə. İcazə ver adlayım buradan. Qadın qəbrin üstündən aşmaq istəyirdi ki...

Yazı qadını cazibə qüvvəsi kimi geri dartdı. Bu nədi belə sinədaşının üzərində? Yox. Qurumuş qərənfilləri demirəm, Yox, şam ağacından qəbr üstünə tökülən iynə yarpaqları da demirəm. Bax, bu yazıları deyirəm. Notdu, deyəsən?!

-Hə, tamamilə doğrudur. Notlardı. Qadın sinədaşı üstünə əyildi. Qəbrin üstünün quru ot və tozunu silib, təmizlədi.

Svetlana Mirzəyeva!

Romantik vals

Alleqretto

Qraciozo

Geri dön

Daha hasarı aşmaq lazım olmadı. Daha doğrusu ayaqları getmədi qadının.

-Geri dönmək lazımdır. Bu qəbri tanıyandan və məhrumun sinədaşındakı yazıları görəndən sonra heç bir mərhuma salam verə bilməyəcəyəm, hər halda...

Əhli-qüburları bu qədər ziyarət etmək bu günlük kifayətdir. Onsuz da gedə bilməyəcəksən. Geri dön, qadın!

Əməkdar incəsənət xadimi

Maşın sürətlə şosse yolunda maşınların arasından şütüyüb keçdi. Qadın tələsirdi. Sanki qovan vardı.

Maşın köhnə darvaza ağzına çatıb uladı. Təkərlər torpağa dirənib yerə mıxlandı. Qadın ürəyində fikirləşdi;

-Maşını bu günə niyə qoyursan? -düşündüyü fikrindən yarımçıq digər fikrə keçdi;

-Görəsən, qəbirdə uyuyan qadın kimdir?

Tez-tələsik evə keçdi. Kompüter cihazını qoşdu. Axtarış etdi- Svetlana Mirzəyeva.

Şəkili ekrana gəldi; - Jurnalist xanım?! “Şöhrət ordeni kavaleri”, “Fəxri mədəniyyət işçisi”, “Zərdabi”, “Məhsəti”, “Qızıl qələm” premiyalarının laureatı, “Cəbhə artist briqadalarının ordu üçün maddi yardımın təşkilatçısı”.

- Hm...m...demək belə...Ruhun şad olsun, yaradıcı insan!

Bu dünyanın adamları

Yaz, yarat, çalış, vuruş ey dünyanın adamı! Bəs sonra...

Sonra isə boşluq! Hansı boşluq? Dolu sandığımız boş dünya. Ey bu dünyanın adamları, özünüzü yormayın, əbəs yerə.

Qamət

Salam, Qoca. Niyə əyri gəzirsən? Sənə belini dik tut, demişdim. Dik gəz Qoca, dik gəz. Zamana meydan oxu və dik tut qamətini!

Gecikmiş təşəkkür

-Qoy zəng edim, təşəkkür üçün. Yox, dayan hələ tezdir, bəlkə də yuxudan oyanmayıb. Neynim, sonra yenə də yadımdan çıxacaq.

Zəng...yuxulu səs...

-Eldost Bayram, bağışla sənə təşəkkür etməyə gecikmişəm.

Kaş ki

Bu sözləri səni tanıyanda deyə bilməzdim. İndi isə qətiyyətlə deyirəm:

-Xoş gəldin dünyama, Qoca! Yaxşı ki, səni tanıdım. Bəzən düşünürüəm; - Kaş ki, səni əzəldən tanıyaydım!

Vaxt; gecikmiş zamanla ölçülsün.

Arzu

Arzular bitməz...Arzular qanadlı quşdur, uçar! Arzular yaşam tərzimizdir! Bir arzuma da belə yetdim.

-Nəhayət ki, “Nissan Juke” markalı maşını aldım. Şükürlər olsun Allahıma.

Sağ olun, dostlar!

Bağlı qalan telefonumu açanda “whatsApp”la otuz yeddi təbrik aldım. Məni təbrik edən dostlar, sizə təşəkkür edirəm. Mən sevən və məni sevənlər, nə yaxşı ki varsınız! Sağ olun dostlar!

Zərif düşüncələr

Soruşum...

Qışqırma! Onsuz da quşlar səsindən qorxmurlar. Səni heç veclərinə də almadılar. Gör kələm ləçəklərini necə iştahla yeyirlər.

-Bu nə quşdur belə, sığırçınların arasında? Bəlkə şanapipik? Tükləri boz və sarı...

-Yox, sarıköynək deyil, bülbül də deyil. Qoy kənd sakinlərindən soruşum...

Ay, səni, çaydaçapan!

Əsrarəngiz görüntü

Bağ evim. Daş məhəccərə söykənib ətrafın gözəlliyinin şəklini gözlərimlə çəkirəm. Dağ başından əsrarəngiz təbiəti seyr etmək necə də gözəldir. Göz işlədikcə uzanan Böyük Qafqaz sıra dağları. Göylərlə yerin birləşdiyi, öpüşdüyü fəza.

Dağların ətəklərindən görsənən kəndlər. Ah, necə də gözəldirlər!

Evimdən görsənən Rəsədxana, göy cisimlərini müşahidə və tədqiq edən məkan.

Yaxınlıqdakı göldə balıq tutan insanlar... Dağ döşündə qalın meşələr...Görsənən təpələrdə sürülərin yaylıma çıxması...

Eh, bağışla, ana təbiət, gözəlliyini layiqincə vəsf edə bilmədim.

Bağışlayın, quşlar

Ah, necə gözəldirlər! Özü də çoxdurlar. Su quyusunun üstündəki salxım söyüdlərə qonan quşlar, yerinizdə olmaq istədim. Fəzanın ənginliklərinə uçmaq istədim...

Stolun üstündən bir şəkər parçası götürüb quşlara sarı atdım. Hürküb uçdular. Həyəcanla cikkildəşdilər.

-Bağışlayın quşlar, uçmağınıza tamaşa etmək istədim.

Kəpənəklər

Ah, ömrü az kəpənəklər! Necə də əlvan, rəngarəngsiniz. Çiçəklər üzərində gözəlliyi artıran kəpənəklər!

Necə də çəkicisiniz! Bəs yağış yağanda harada daldalanırsınız? Bunu heç düşünməmişəm. Qanadlarınızda əlvan rənglər var, gözəl və cazibəlisiniz!

Ay, ömrü az kəpənəklər, deyirəm, görəsən. Çiçəklərin üzərinə qonanda siz xoşbəxt olursunuz, ya çiçəklər? Məncə çiçəkləri xoşbəxt edən sizsiniz.

Çürük dünya

Sənin dünyan çürükdü. Bir gün məhvərindən qopacaq. Uçacaq başına. Elə özün də çürüksən! Bu sözlər üçün məni qınayanlar olacaq. Qoy olsun! Yazdıqlarımı anlamaq üçün çürük insanın çürük dünyasını görmək kifayətdir.

Təşəkkür

-Deyirsən, yaxşı ki, varsan. Nə yaxşı ki, mənə qarşı hisslərin var. Eşqinin gücü adamı dəli edər. Bu sevgi üçün təşəkkür edirəm...

- Dediyin sözlər yaralı qəlbimi ovutmur, hansı təşəkkür? Kinayə ilə dediyin...?! Dəli olmağa gəldikdə isə fikirləş dəli olduğunun vaxtını. Mən səni belə tanımışam.

Bəhanə

Mənmi? Mənmi bəhanə gəzirdim?! Haqsız olma! Mən necə də o günü gözləyirdim...

Bəs sən?... özünü bəlkə də ağıllı sayırsan?! Mən isə bilə-bilə axmaq olmaq istəmirəm.

Qurtardı

Yazma, yazma xahiş edirəm. Yorğunam. Dincəlmək istəyirəm. Yazma, ay adam.

Bütün baş verən hadisələrdən sonra...-Salam, deyirsən?! Məgər arada heç nə baş verməyib? Hələ bir kefimi də soruşursan? “Mənə toy tutduğun” yadından çıxıb?!

-Hmm...m...Toy qurtarıb. Hansı havaya oynayırsan?

Qəbiristanlığa səyahət
(silsiləsindən bir parça)

Qadın Svetlana Mirzəyevanın qəbrini ziyarət etmək istəyirdi. Qəbiristanlığın dar qapısından içəri adladı. Fikirləşdi:

-Görəsən, düz gedirəm? Hə, düz gedirəm. O gün bu gümbəzin yanından ötüb keçdim. Deyəsən, çox keçdim. Mərhumların başdaşına baxdı. Bu deyil, bu da deyil. Qadın:

- Qayıt geri, bax, görsənən o ağaca tərəf get. Aha, buradadır.

-Salam mərhum. Xoş gördük. Səni görmək arzusunda oldum. Qadın gətirdiyi suyu qəbrin üstünə tökdü. Ona elə gəldi ki, mərhumun şəkli gülümsədi. Ürəyində

- Qəribədir, məni sənin ziyarətinə çəkib gətirən hansı qüvvədir,-düşünsə də, dilində;

Səni hər zaman ziyarət edəcəyəm, Svetlana Mirzəyeva!-dedi və asta addımlarla günbatana sarı addımladı.

Ölülər danışa bilməz

Əsəbiyəm sənə! Mənə zəng etmə! İstəmirəm. Səni diri-diri basdırmışam. Soruşa bilərsən ki, harada?

-Ürəyimdə? Yox. Düşüncələrimdə?- yenə də yox.

-Hər gün yeridikcə addımladığım ayağım altındakı torpaqlarda. Zərrəciklərə bölünmüsən artıq. İstəsəm də səni əvvəlki halına qaytara bilməyəcəyəm.

-Heç istəməyəcəyəm də. Mənə zəng etmə. Ölülər danışa bilməz.

Hardasan, Qoca?

Səsin-səmirin gəlmir. Telefonun da susub. Allah eləməmiş başına bir iş-zad (qadın qulaqlarını çəkir) gəlib eləmiş olar. Səni itirməkdən qorxuram. Sən mənə artıq doğmalaşmısan, Qoca.

Gəzdiyin məkanları aradım. Yoxsan...yoxsan...Hardasan, Qoca?

Savab

Salam Allahın salamıdır,-deyirsən. Bəli düz deyirsən. Və mənim də sənə salam verməyimi istəyirsən. Sənə salam verməkdə nə fayda?! Sən ki, salamın qədrini-qiymətini bilmirsən.

Sənə verdiyim salamı qəbiristanlıqda uyuyan əhli-qüburlara versəm, Allaha daha xoş gedər və mən də savab qazanmış olaram.

Şükürlər olsun

Sənə çox şükürlər olsun, Tanrım! Məni mən etdiyin üçün. Məni sevdiyin üçün.

Kimsən, ay adam?

-Kimsən ay adam? Susursan.

-Hm..m...Sən kimsə deyilsən. Düzdür atan, anan və doğmaların var. Hə, bir də adın var. Bəndə qoyan adın.

Lakin böyük Tanrın olmasa nə adın, nə də varlığın ola bilməz.

-Kimsən, ay adam? Susma, danış.

-Allah bəndəsi.

Bəli, cavab xoşuma gəldi. Allahına da qurban olum, yaratdığı bəndəsinə də.

Arada

-Sildim. Soruş nəyi? Sənlə bağlı bütün düşüncələrimi. Səni ürəyimdən, yaddaşımdan sildim və yüngülləşdim.

-Düzdür, arada yada düşürsən...arada...Bilirsən də arada yada düşmək nədi?! Yəni az müddətdə düşüncəmdən tamamilə yox olcaqsan!

Bəxt və uğur qapısı

Narahatsan? Belə yaxşıdır! Deməli məsuliyyətlisən. Narahat olmağa dəyər- sabah 105 FM radiosunda səsyazmaya gedəcəksən axı?! Özü də bu məsuliyyəti ikiqat daşımalısan. Çünki, Şirvanlıları təmsil edəcək, Şirvan aşıqlarından bəhs edəcəksən, dinləyicilərə.

Allah köməkçin olsun, Ulu Şirvanlı. Bəxt və uğur qapıları üzünə açıq olsun! Amin!

Dağılmış düşüncələr

Şairə düşünür...

Getmək istəyirəm...yarımçıq işlərimi yoluna qoysaydım, ayrılardım şəhərdən. Sakitlik arzusundayam. Dağılmış düşüncələrimi toplamaq istəyirəm sakit bir məkanda.

Düşüncələr demişkən, sabah Azərbaycan radiosunda "Düşüncələr" verlişinin qonağı olacağam, inşallah.

Hə, onu deyirdim axı. "Düşüncələrim dağılıb", toplamaq istəyirəm. Bir fikri isə salıb itirmək istəyirəm.

-Bu sənsən! Səni düşünmək istəmirəm!

Bax belə

Əcəb ha...zəng eyləmisən. Pakizə, əla pakizə. Mən sənin nəyinə gərəyəm axı?! Yox, yox, fikrimi düz ifadə edə bilmədim. Sən mənim nəyimə gərəksən axı?

Hə, bax belə, indi düz oldu!

Sədəqə

Dilənçi qız ləhcəylə;

-Ay xanım, sən Allah bir sədəqə ver, deyə- qadına yaxınlaşdı.

Çıx get. Elə bu dəqiqə sədəqə verdim başqasına.

-Mənə də ver.

-Çıx get.

Dilənçi səsini yüksəltdi:

- Sən yaxşı iş “tutmersən”. Yol “gedersən”, özü də maşınla ha. Sədəqə ver, get.

-Allahu Əkbər!

- Allahın adını “çəkersən”, amma Allah yolunda pul vermirsən. Bax ha, yola “çıxersən”.

Qadın mat-məəttəl qaldı. Ay qız, sədəqə istəyirsən, ya məni hədələyirsən.

Dilənçi qız əsəbi;

-“Gedersən” get, o yol o da sən, özün bilərsən, “vermersən vermə”. Məndən deməkdir!

Qadın dilənçi qıza iyirmi qəpik uzadıb;

-Dilənəndə yalvararlar, hədə-qorxu gəlməzlər-dedi.

Pula baxan qız:

-Bu boyda maşın “sürer”, verdiyi pula bax. Hələ bir yalvar da deyir.

Ağa

-Mənə ağa deyirsən? Ağa olanın sözü keçər.

-Hm...m... deməli, ağa olmaq istəyirsən?! Ağa olmaq üçün böyüklük etmək gərəkdir. Böyüklük etmək üçün isə böyük ürək lazımdır. Bəs sənin necə, ürəyin böyükdür? Hələ bir gör, sənin ürəyin var, çırpınırmı?

-Ürəksiz cin-şeytan olar.

-Sənin onlardan fərqin nədir?

Azərbaycan radiosu

Azərbaycan radiosunun Səhər Musiqili verilişləri və Xalq Yaradıcılığı redaksiyalarının səsyazma studiyası.

“Yay düşüncələri” və “Şirvan şikəstəsi” adlı verilişləri. Verilişin qonağı şairə-publisit Mətanət Ulu Şirvanlı.

-Uğur qapıları üzünə açıq olsun, Ulu Şirvanlı!

Nədi, Qoca

Nədi... nədi, Qoca. İlahi, özümü ələ ala bilmirəm. Sən başımın bəlasımısan?! Vurnuxma buralarda, Qoca. Əl-ayağıma dolaşırsan.

-Sənsiz mənə çətindir-deyirsən. Neynim. Qoca, işimi-gücümü buraxıb evinə köçüm?

Of..of...yaxşı, gəl otur bu skamyada. Hə, indi danış görüm necəsən?

İncitmə

Qocanı niyə qınayırsan, qadın? Sən özün də ona öyrəşməmisənmi?! Bir-neçə gün görməyəndə onu, nəyinsə itmiş kimi vurnuxursan.

-Niyə bağırırsan bu, yazıq Qocaya?!

-Lap uşaq kimidi, biçarə. Nə istəyir ki, səndən...yemək istəmir, su istəmir. Sənlə yalnız həmsöhbət olmaq istəyir. İncitmə Qocanı, qadın!

Muzeyə və ya dəniz kənarına?

Budur, yol ayrılır. Hara gedəcəyinə qərar verməlisən. Dəniz kənarı və ya muzey?

Yorğunam. Bəlkə dəniz kənarına gedib, dincəlim?

-Qərar ver. Fikirləşir qadın...

Qadın yolun sağ istiqamətinə, Niyazi küçəsinə dönür. Deməli, Rüstəm Mustafayev adına Dövlət İncəsənət Muzeyinə.

Muzeyin kassasında əyləşən cavan qız biletin beş manata olduğunu bildirdi. Qadın təəssüf etdi...

-Yox, bu dəfə muzeyi səyahət edə bilməyəcəyəm, -dedi. Qız onu anladı. Sizə tələbə bileti verimmi? Qadın sevinclə;

- Oy, nə yaxşı olar.

Bilet satan qız gülümsəyərək;

-Buyurun biletinizi, götürün. Yorğun görünürsünüz xanım,-dedi.

Muzeyə səyahət

Gözəldir! Bir-birindən dəyərli sənət əsərləri. Çox gözəldir!-deyən- qadın tələsmədən Avropa rəssamlarının rəsmlərinə tamaşa edirdi.

Rəssam Lemoxun "Kəndli uşaqları" adlı əsər- necə də maraqlıdır. Sonra rəssam Alton Ednardonun "Qadın" portretinə yaxınlaşdı. Şəkildə cazibədarlıq hökm sürür.

Rəsmlər insanı düşüncələrin qoynunda ləpələndirir. İlahi, kimdən iki göz də borc alım "Kazbekdə sübh çağı" tablosuna baxmaq üçün? Bəs imza kimindir? Əhsən Zankovski!

Qadının qəlbindən qorxulu fikir keçir; Rəssam sevgilim olsaydı, mənim də portretimi yaradardı, yəqin ki?! Qadın ağlından keçən fikirdən utandı. Görəsən, ucadan demədim ki, fikrimi? Sağ-soluna boylanır. Bələdçi uzaqdaydı.

Sırğa

Budur, o, muzeyin bütün eksponatları ilə bir-bir tanış olur. Bu da qədim Azərbaycan zalı.

Milli paltar nümayiş etdirən qadın modelinin qulağındakı köhnə modelli sırğa onu maqnit qüvvəsi kimi özünə sarı çəkdi. Milli paltara baxmaq həvəsi itdi, sərgilənən milli incilər yaddan çıxdı.

-Nə gözəl sırğalardır!-dedi. Eh, qadın ki, qadın...

Ekspozisiya

Qadın "Qədim Azərbaycan" zalında nümayiş olunan ekspozisiyalara yaxınlaşdı. Burada sərgilənən qədim məişət əşyalarının antikliyi göz oxşayırdı. Eksponatlar arasında böyük kasaları görən qadın özündən ixtiyarsız;

-Acmışam-dedi. Bu sözə nəinki özü, hətta bələdçi də gülümsədi.

O, doğrudan da ac idi. Bunu isə muzeydəki kasaları görüncə anlamışdı.

Adam

Maşının işıqları gecənin köksünü yardı. Kədərin, üzüntünün içərisində o, qonağını yola salırdı. Onun sevdiyi və onu sevən kəsi. Və bir də həmişəlik itirmək istədiyi adamı.

Maşın məlum məkana çatıb, uğuldayıb dayandı.

-Düş və geri baxmadan get, fikirləşdi ürəyində.

Adam doğrudan da geri baxmadan getdi.

Kədərli düşüncələr

Kədər lavası

Heç vaxt indiki kimi peşmançılıq hissi yaşamamışdı. Sən ki, hər zaman qətiyyətli idin, deyə - fikirləşdi. Nə oldu sənə? Bu sevgi səni lal, kar, qətiyyətsiz və bir də, bir də boynuna al ki, mənliksiz edib.

İçində böyük kədər qaytarırdı evinə. Elə bir kədər ki, içini gəmirirdi. Beynindəki düşüncələrini yıpradan, dünyasını alt-üst edən kədər. Kədər lavası beynində dolaşdı, qanında dövr etdi, iliklərinə süzdü, daha sonra bütün vücudunu ağuşuna aldı.

Təsbeh

Maşın döngəni buruldu. Yükü ağır idi. Bəlkə də indiyə qədər bu ağırlıqda kədər yükü daşımamışdı. Qaranlıq düşmüşdü. O isə maşının işıqlarını yandırmamışdı.

Maşın üzü yoxuşa dirəndi. Və elə bu zaman nə isə maşının döşəməsinə düşdü. Səsindən təsbeh olduğunu zənn edən qadın sol əlini sükandan buraxmayaraq sağ əli ilə ayağı altını axtarmağa başladı. Təxmini düz idi. Təsbehi ayağı altından qaldırdı. Dodaqlarına yaxınlaşdırıb, öpdü və pıçıldadı;

- Nədi, niyə yerində durmadın? Yoxsa kədərim səni silkələdi?!

Bir qucaq kədər

Dünyanın qara zülməti çökmüşdü ətrafına. Gecənin tənində ətrafın sükut və sükunəti onu darıxdırırdı. Gözlərini gecənin bətninə zilləyib baxırdı, sonsuzluğa baxılan kimi. Qarşıda görsənməyən təpə vardı. Qaranlıq qoynuna alıb gizlətmişdi təpəni. Bu an gözlərinə görsənən onun təpədən böyük dərdi idi.

Qadın bir saata yaxın olardı ki, maşının içərisində oturmuşdu, donmuşdu, sanki. Elə bil vücudu yox idi. Yalnız düşünmək iqtidarındaydı.

Qapıya salınan açar cingildədi. Səssizlikdə açar cingiltisi kilsə zəngini xatırlatdı. Qadın səsə əsəbləşdi. Əsəbi addımlarla çarpayısına sarı üz tutdu. Soyunmadan özü ilə gətirdiyi kədəri qucağına alaraq yatdı.

Çalınmayan zəng

Telefon zənginə gözlərini açdı. Yox, o, deyilmiş. Telefona cavab verib, yenidən başını yastığa dayadı. Saat aramla zamanı ölçürdü. Qalxmaq lazım idi.

Əl-üzünü yudu. Əzgin idi. Dünyanın yükünü çiyinlərinə almışdı, sanki.

Zəng...Telefona sarı yüyürdü. Yenə o, deyil. Bircə zəng etsəydi. Boğazımdan yapışıb məni boğan fikirlərimi deyərdim. Və bir də onu deyərdim ki…

Hə, çox şey deyərdim, təkcə həmişəkindən fərqli olaraq, səni sevirəmdən başqa.

At

O, uzaqda görünən biçənəklikdəki dəmir atı müşahidə edirdi. At sanki darıxırdı. Qadın təkcə olmasına baxmayaraq yüksək səslə, sanki at onu eşidirmiş kimi dilləndi:

-Nə olub, ay at, niyə durmadan kişnəyirsən? Nəyin dərdini çəkirsən? Bu boyda Pirqulunun dağ-yamacı səni tutmur ki, bayaqdan yer eşirsən dırnaqlarınla?!

At daşlı-çınqıllı kənd yolunu keçib, dərəyə sarı çapdı. Bir neçə dəqiqədən sonra başqa bir atla təpənin üstündə göründü.

Qadın pıçıldadı:

-Hm...m... indi səni başa düşdüm.

Dünya çırağı

Getdiyi yol onu ən əziz adamına-anasına aparırdı.Yollar onu getdiyi evin astanasına kimi ötürdü. Yarıaçıq qapıdan içəri keçdi. Anası otağın ortasında gedəcəyi yerin səmtini tutmağa çalışırdı. Bunu görən qadın pərişan və məyusluqla anasını səslədi:

-Annəcim. Bu söz ana və bala arasındakı şifrə idi, sanki. Ana səsə döndü. Gələnin kimliyini ayırd etmək istədi. Qızı yenidən səsləndi.

Ana: -Məryəm, sənsən?!

-Mənəm ana, -dilləndi qadın. Niyə təksən-deyə verdiyi sualına;

-Uşaqlar həyətdədir, cavabını aldı.

Üç saatlıq görüşdən sonra anasının yanına aparan yollar onu geri qaytarırdı.

Daxilində nigarançılıq vardı; -dünya çırağından məhrum olanım. Sən ey Günəşi solanım.. Qəhər qadını boğdu. Düşüncələri dolaşdı...Göz yaşları əllərini yudu.

Anasının arxasınca dediyi söz onun beynini çəkic kimi döyəcləyirdi;

- Bir də nə vaxt gələcəksən?

Bir sevda ölsə...

Get, yat. Niyə yatmırsan, Allah yuxunu səndən alıbmı bəyəm?! Nə ağzını əyirsən, bax, sən beləsən, adamı özündən beləcə kənarlaşdırırsan.

Özünü məğrur göstərirsən; zənn edirsən ki, qalibsən? Yox, belə deyil! Bəlkə buna qisas deyirsən? Əgər belədirsə, o zaman düz fikirləşmirsən! Mən belə hesab etmirəm.

-Eh, bu dünya məhvərindən qopmayacaq ki, bir sevgi, bir sevda ölsə əgər. Dünyada çox sevgilər ölüb, hətta sevgililər də ölüb. Mən də bu sevdadan ölsəm, yenə heç nə dəyişməyəcək, nə də dünya batmayacaq.

Ölsəm günahkarı sən olmayacaqsan. Eh, nə də sənə sevgi qəhrəmanı adı verilməyəcək. Odur ki, canfəşanlıq etmə.

Musiqi qanadlarında

İşləyə bilmirəm, AzTv-dən görkəmli bəstəkar Elza İbrahimova haqqında yayımlanan veriliş düşüncələrimi dağıdır. Maraqla verilişə baxdım. Bir-birindən gözəl mahnılar bəstələyən Elza xanım, Allah sizə rəhmət eyləsin!

Dörd qəbir

-Bu yol hara gedir, orada kənd var?

-Yox, orada yataq var, deyə taksi sürücüsü cavab verir.

-Çoban itləri bura gəlib çıxa bilər?

-Əlbəttə. Mal-qaranın örüşdən qayıdan vaxtıdır. Hara gedirsiz?

Qadın uzaqdan görsənən dörd qəbri göstərir. Ora,- deyir.

-Onda maşınla gedin-dedi. Uzaqdı, yorularsınız. Mənə dair qulluğunuz, sizə necə kömək edə bilərəm?

-Sizə yaxşı yol-deyib, qadın sürücüdən aralandı.

Qadın təpəyə çatdı. Nəfəsi daralırdı. Yoxuş onu yormuşdu. Başını qaldırdı. Təəccüblə dilləndi:

-İlahi, bu nədi belə?

Uzaqdan qəbir kimi görsənən, qəbrə oxşayan sən demə, daş sütunları imiş. Qadın dəli bir qəhqəhə çəkdi. Özü-özünə müraciət etdi:

-Hə, xanım, "Qəbiristanlığa səyahət" yazısının növbəti sayını qələmə ala bilməyəcəksən. Heç ölülərə salavat da verməyəcəksən.

-Əşi yox e. Qoy burada bir salavat çəkim. Nə bilmək olar, bəlkə də bu sütunların altında uyuyan var...

Maşın

Bu nə səsdi belə? Kimin isə maşını vuruldu, -deyən qadın yüyürərək özünü otelin bağçasından çölə atdı. Düz tapmışdı. Maşın vurulmuşdu. Şükür, onun maşını deyildi.

Ofisiant oğlan müştərilərdən birinin maşınını divara vurmuşdu. Oğlan həyəcanla kimi isə köməyə çağırdı:

- Yasin, gəl kömək eylə, maşını kənara çəkək. Yasin deyilən şəxs:

-Ə, sən öl, əlimi də vurmaram. Sonra da deyələr ki, gəl cərimsini ödə.

Lahıc

Maşın üzünü şimal-qərbə tərəf tutmuşdu. Şamaxı ərazisini adlayıb keçdi. Ağsu yollarının gözəlliyini gördü və sonra da İsmayıllının əsrarəngiz gözəlliyi başladı yollarda.

Qadın Lahıc yolunu müəyyənləşdirdi. Çaya çatıb maşını saxladı. Dəli Girdimançayın gur qolları "Sular" nəğməsini dayanmadan ifa edirdi, yolçular üçün. O, ətrafındakı insanlara laqeydcəsinə baxdı. Və daha sonra yüyürərək özünü çaya vurdu.

-Oxay, nə gözəldir! –dedi.

Yenidən yoluna davam etdi. Vaxtilə taxtadan olan, indi isə dəmirlə əvəz edilən asma körpünün yanında dayandı. Körpünü adladı.

...Yolu davam edirdi qadının. Bu yolu dəfələrlə getməsinə baxmayaraq hər dəfə bu bölgənin mənzərəsi onun könlünü riqqətə gətirirdi.

Dünyanın ən qüdrətli rəssamı olan Tanrı öz fırçasını buralara könüllü çəkmişdi. Budur, təkrarolunmaz gözəllik! Allahın mərhəməti və qüdrəti olan məkanı! Nağıllar ölkəsi Lahıc!

Nağıllar ölkəsi

Yalçın və çılpaq Nial dağlarının ətəyi ilə koramal kimi qıvrılıb, uzanan yollar qadını Lahıca gətirib çıxartdı. Bu yerlərdə təbiətin bağışladığı gözəlliyə göz yumub, keçmək günahdı.

Turistlərin məkanı olan Lahıcda həyat qaynayırdı. Misgərlər, dəmirçilər, zərgərlər, dulusçular, ipəkçi və nəqşçilər mallarını satışa çıxartmışdılar. Bir sözlə, bu diyar şərqin aynasıdır.

Qadın nağıllar ölkəsini darıxmadan gəzdi. Əl işləri olan sənət incilərinin şəklini çəkdi gözləri ilə. Daha sonra isə ətrafdakılardan öz rəsminin çəkilməsini istədi mobil telefonla. Milli paltarların nümayişi, kəhraba muncuqların cazibədarlığı, məişət əşyalarının antikliyi Lahıcın-nağıllar ölkəsinin sehrini artırırdı.

Qadın səməni halvasının ətrini hiss etdi. Bir-bir vitrinlərə baxdı səməni halvası üçün, görmədi.

-Yəqin, yaxınlıqda bişirirlər-deyə düşündü. Və qarşıdakı piştaxta üstə yığılan məcunlar arasında nəhayət ki, səməni halvasını gördü. Dənə ilə satılan səməni halvasından beş dənəsini aldı. Daha sonra dükandan iki tütək alıb, cənnət bağına sarı addımladı.

Geri dön

Maşın üzü şimal-şərqə sarı irəliləyirdi. Qadın yolları yaddaşına köçürə-köçürə dolayları aşdı. Yol kənarındakı kafelərin birində çay içmək istəyirdi. Odur ki, sakit bir yer seçdi.

“Prado” markalı maşın onun əyləşdiyi stola yaxınlaşıb dayandı. Maşının sürücüsü üzü yoxuşa sarı

getdi. Maşından düşən qadınlar isə səs-küylə qadına yaxınlaşdılar. Qadın düşüncələrindən ayrıldı. Əlini telefona atıb, yaxınlaşan xanımlardan birinə müraciət etdi:

-Ay qız, xahiş etsəm şəklimi çəkərsinizmi?

Xanımlar qadının əyləşdiyi stolda əyləşib, çay içirdilər. Bu dəvəti qadın etməmişdi. Onlar öz maraqlarına görə qadınla həmsöhbət idilər.

Yolçular ayrıldı. Qadın yenidən şərqə, digərləri isə qərb istiqamətinə üz tutdular.

Qadın artıq ona doğma olan Şamaxının ərazisindəydi. Nağıllar ölkəsinin düşüncələrini beynin süzgəcindən ələyirdi aramla. Zaman qadını ələyən kimi...

Görünməyən qonaq

O, Pirquluda yaşayan ailə dostunun evinə getmək istədi. Getdi də. Darvaza ağzında "Mersedes" markalı maşın dayanmışdı. Qaranlıq düşmüşdü. Qadın:

-Yəqin qonaqları var-deyə düşündü. Maşından düşmək istəmədi. Düşüncələrini ölçüyə aldı;- düşüm-düşməyim?

Qərarının sonunda maşından düşdü. Yarıaçıq darvazadan içəri boylandı. İçəridə tanıdığı və tanımadığı simalar işıq altında aydınca görünürdü. Bir-neçə dəqiqə qapı ağzında dayandı. Və kimsəyə görünmədən geri döndü.

...bu evdə böyümüşəm...

Darvazanı döysə də, üzünə qapı açan olmadı. Qapı içəridən bağlıdır. Deməli, evdə kimsə var...

Hasardan aşmaq lazımdır. Qonşu oğlan qapını açmaq üçün hasarı aşdı.

Bu da böyüdüyü, boya-başa çatdığı ev, onu qarşılayan xanım isə tərbiyə edib böyüdən insandır. O, anadır- qadının anası.

Xanım sevincliydi. Qızı gəlmişdi, çoxdan görmədiyi övladı.

Qonşu xanımın qadını görməyə gəlməsi və bir də qadının cib telefonunun zəngləri ananın xoşuna gəlmədi. O, oğul-qız yerinə böyütdüyü balası ilə tək qalıb dərdləşmək istəyirdi.

Saat tələsirdi, qonşu isə getməyə tələsmirdi. Xatirələrin boxçasını açır-tökür, düşüncələrini əlçimləyir-darayır...danışır... arabir söhbətini yarımçıq qoyan telefon zəngindən sonra yenidən yarımçıq söhbətini davam edirdi.

Ana kəsdirdiyi iki toyuqdan birini tezbazar soyutma bişirdi. Qadın yemədi. Ana and verdi. - Çörək ye,- dedi.

Qaranlıq düşürdü. Qadın getməliydi.

Ana isə onun getməsini istəmirdi. Lakin o, getməliydi. Qadın qonşudan üzr istəyərək ayağa qalxdı. Ana məyusluqla;

-Hə, indi mən səni gördümmü?

-Qadın gülümsədi;

-Yox, demək olar ki, görmədin, deyə -cavab verdi. Qonşu hələ də danışırdı...

Qadın yola düşdü. Ana onun dalınca yüyürüb kəsilmiş toyuğu zorla ona verdi:

-Bişirdiyimi də yemədin. Bunu götür, -dedi.

Qadın yol uzunu düşündü...çox məqamları yada saldı. O evdə döyülə-döyülə keçən illərini xatırladı və daha nələri xatırlamaq istəmədi. Və sonunda düşüncələrini kəsilmiş toyuğun üstündə cəmlədi.

-Hə toyuq, hər kəsin bir baisi olur. Bağışla.

Əcnəbilər

Maşın avtovağzal istiqamətində Şamaxının mərkəzinə sarı şütüyürdü...

Qadın yol kənarında vurnuxan əcnəbi kişi və qadını görən kimi maşının əyləcini basdı. Maşın uğuldayıb dayandı.

Əcnəbilər yüyürüb özlərini maşına atdılar.Qadın:

-Hara gedirsiniz? -sualını verdi. Yadellilər:

-Спасибо... Спасибо…Прямо... Прямо..

Maşın yerindən sürətlə tərpəndi. Bu dəfə qadın rus dilində soruşdu;

-Куда вы идете?

Əcnəbilərin hər ikisi qadına sarı əyildi. Və geri çəkilməyərək nə isə ingilis dilində doğrayıb tökdülər.

-Я русский язык знаю. Английский язык не знаю. Вы знаете по русски?

Əcnəbilər yenə nə isə dedilər...qadın daxilində əsəbləşdi...

-Allah, indi hara aparım bunları,- desə də, öz yoluna davam etdi.

Qonaqlar aralarında nə isə ölçüb-biçirdilər.

-Lənət şeytana! Nə deyir axı bunlar? Qadın əcnəbilərdən üşələndi. Daha doğrusu qorxdu. Onların

niyyəti aydın deyildi. Nahaq götürdüm, rus dilini də bilmirlər, -deyə qadın düşündü.

Maşın M. Ə. Sabirin ev muzeyinə çatıb dayandı. Düşün, mən buradan dönürəm, deyə yalan danışmağa məcbur oldu. Əcnəbilər:

- O...o...yes, yes -deyə-deyə maşından düşdülər.

Qadın tutduğu işə peşman oldu. Elə bu an gözü daş səkidə oturan cavan kişiyə sataşdı.

-Burada əcnəbilər çox olur,-sualaını verdi. Və sualı niyə verdiyini özü də bilmədi.

-Yox, onlar hara gedir ki,- soruşdu kişi.

-Əşi nə bilim, onlar rus dilini , mən də ingilis dilini bilmirəm.

Kişi: -Güman kimi Çuxuryurda gedirlər,-dedi.

-Mən də elə başa düşürəm. Amma doğrusu qorxub, düşürtdüm onları maşından. Yoxsa aparmaq niyyətim var.

-Mən də ora gedirəm. İstəyirsiz birlikdə gedək-deyə kişi təklif etdi.

Qadın sevindi. Qarşıda vurnuxan əcnəbiləri yenidən maşına dəvət etdi.

Kişi onları rus dilində dindirdi və ingilis dilində cavab aldı. Qadın güldü. Problem bax , elə bu idi, -dedi.

Yol isə biçilidi maşının təkərləriylə...

Qadın: - У вас карта есть?

-O...o yes..yes -deyə çantalarından ünvan yazılan kağızı çıxartdılar.

Kişi alıb baxdı. Getdik, mən deyəndi. Kirovkaya gedirlər. Qadın maşının sürətini artırmışdı ki...

-Əcnəbi kişi: -No, no –deyə əlini Şamaxının köhnə Kirov küçəsinə uzatdı. Kişi:

-Pay atonnan, lallara döndük; - Deməli, bu küçəyə getməlisiniz?- soruşdu. Üzünü qadına tutub:

-Mən düz oxumamışam ünvanı, bura Kirov küçəsidir. Ünvanda Kirovka deyil, Kirov yazılıbmış. Maşın bəzəkli darvazanın ağzına çatıb dayandı.

Qonaqlar minnətdarlıqla maşından endilər. Əcnəbi kişi maşından düşüb, qadına baş əydi və beləcə təşəkkürünü izhar etdi.

Lakin kişi hələ mənzilə çatmamışdı. Qadın narahat deyildi. Əgər belə olmasaydı, şübhəsiz gecəni yata bilməyəcəkdi.

Qadın daxili bir rahatlıqla yoluna davam etdi.

Bağışla

Bağışla Qoca, neçə gündür lap yadımdan çıxmısan. Şübhəsiz ki, məndən ötrü darıxırsan.

Eh, mən isə səni tamamilə yaddan çıxarmışam. Əgər bu gecə səni yuxuda görməsəydim, yəqin ki, Bakıya qayıdana kimi yada düşməyəcəkdin.

Hə, bax indi məni qınamağa haqqın var!

Heç

Peşman deyiləm. Hər şey olduğu kimi gözəldir! Bu xoşagəlməz hadisə özü də gözəldir! Bəli, belədir!

Sənin üçün ürəyim ağrımayacaq. Mənim üçün heç nə ifadə eyləmirsən. Yox, bağışla, nə isə ifadə eləyirsən. Sənin ifadən var, lakin dəyərin yoxdur.

-Sən bir heçsən! Heç!

Közərən düşüncələr

Yada düşməyəcəksən

Geri baxmağı sevmirəm, eləcə də xoşagəlməz hadisələri də yada salmağı. Odur ki, səni yada salmayacağam.

Belə bir ifadə var; -Sən artıq mənim üçün ölmüsən!

Sənsə ölüyə də tay deyilsən. Ölülər yada düşər, xatırlanar. Sən isə heç vaxt yadıma düşməyəcəksən. İnan ki, bu belə olacaq!

Cismim və ruhum

Harada səhv etmişəm. Yox, səhv etməmişəm. Özümə və duyğularıma olan hörmətim məni sənə sarı-sevgimə sarı sürükləyib. O sevgiyə ki, sənə layiq deyildi.

Sən qazandın, özünə layiq olanı - nifrəti. Bu elə sənin ilk günkü qiymətindir. Dəyərinin olmadığını bilirdim. Əfsuslar olsun ki, özümlə bacara bilmirdim. Çünki, səni sevirdim. Kimi sevdiyimi də yaxşı bilirdim. Neyləyim, bu mənim qərarım deyildi.

- Ah səni, ürəyim, namərdsən!

Ürəyin isə gözü yoxdur. Həqiqəti görə bilmir, sözümə baxmırdı. Düşüncələrim isə illərlə mənə yolu göstərirdi. Yolunda cismim və ruhum nə qədər əziyyət çəkdi. Odur ki, cismimdən üzr istəyir, ruhuma isə baş əyirəm!

Qarğış

Sən dünyada heç kimin sevilmədiyi kimi sevildin. Ali və ehtiram dolu. Səni sevən qadın yalnız ürəyi ilə deyil, bütün varlığı ilə sevdi. Bu ki, xoşbəxtliyin özü idi! Sənsə bu xoşbəxtliyin qədrini bilmədin.

-Yox, bu sevgi deyildi. Tapınmaq idi. Sənin murdar varlığına tapınmışdı, qadın.

Sevən insanın gözü kor, qulağı kar olar,- deyirlər. Lakin bu sevgi qadının varlığını məst, beynini manqurt, gözlərini isə sevgi şüaları ilə kor etmişdi. İndi növbə sənindir.

Bu sevgi gözündən gələcək, bəbəklərini tutacaq, inşallah. Buna inanır qadın, Tanrısına inandığı kimi. Qadın ürək yanğısı ilə;

-Bu sevgi haramın olsun!-deyə ufuldadı.

Ehtiyacım var

Ah, Qoca, kaş ki, yanımda olaydın. Dərdimi danışıb, doyunca ağlayardım yanında. Və bilirəm ki, sən də mənə təsəlli verəcəkdin. Bəlkə də soruşacaqdın ki;

-Peşmanmısan?

Yox, yox peşman deyiləm. Əsla! Peşman olmağı sevmirəm.

Bağışla məni Qoca, deyəcəyəm;

-Sən kimsən, bilmirəm, lakin müdriksən! Qoca, dərdləşmək üçün sənə ehtiyacım var!

Qadın və turşu

Onun ən çətin günü və anları idi. Bu gün qadının son ümidləri öldü. İllərlə can verən, lakin özünü təslim etməyən sevgisi təəssüf ki, canını tapşırdı. Sevgisi dedim, deyəsən?

- Yox, yox, qadının sevgilisi də öldü.

Qadın ağrı və iztirablar içərisində pomidor turşusunu balonlarda hazırlayırdı.

Əlindəki pomidorları özünün varlığına, şüyüd saplaqlarını keçdiyi həyat yoluna, reyhan və nanəni gözəl və ətirli vücudunun rayihəsinə, sarımsaq və bibəri ağrı-acılarına, duzu qədərinə yazılan zəhərli məqamlara, bir balon suyu göz yaşlarına, sirkəni isə onu yandıran həyat hadisələrinə, yaşantılarına bənzətdi, -qadın.

Qadın balonu əlinə aldı. Necə də mənim həyatıma bənzəyirsən. Səni mən hazırladım. Yəqin ki, sevilə-sevilə yeyiləcəksən. Məni isə heç zaman sevən olmadı, hər zaman incitməyə, hətta əzməyə çalışdılar.

Allah rəhmət eyləməsin!

O, darıxır. Getməyə isə yer yoxdur. Hətta söhbət etməyə də kimsə yoxdur. Axı qadın Pirquludakı bağ qonşularını tanımır.

Bayırda sərt külək canavar kimi ulayır. Bəzən də özünü açıq qapıdan içəri təpir. Qadının ona əhəmiyyət vermədiyini görüb, gəldiyi kimi də otaqda fırlanıb gedir.

O, darıxır. Fikirləşir: -Baş sağlığına gələn yoxdur. Axı bu gün onun sevgisi və sevgilisi ölüb.

Yaxşı ki, başsağlığına gələn yoxdur. Gələnlərə xətir ağlamalıydı axı. O, isə ağlamırdı. Sadəcə darıxır. Qadın düşüncələrinə davam etdi.

-Bəlkə də bayaq külək başsağlığına gəlmişdi. Əhəmiyyət vermədiyimə çıxıb getdi. Gəlib nə deyəcəkdir ki, yəqin deyəcəkdir;

- Allah sevginə və sevgilinə rəhmət eyləsin?!

Qadın yenidən düşündü;- Allah rəhmət eyləməsin!

Qadın darıxırdı, sadəcə darıxırdı.

Məhbus

Bütün olanlara baxmayaraq, sevgisinin və sevgilisinin ölməsinə rəğmən qadın sevincliydi.

Lakin başında uğultular vardı. Sanki beyninin içərisində kimsə oturmuşdu. Beyni dolu sual idi. Ona veriləcək suallar...

-Nəyə sevinirsən qadın?

-Məhbusluqdan qutardığıma.

-Bəyəm sən dustaq idin?

-Bəli.

-Günahın nə idi qadın?

- Dünyanın qədirbilməzini sevmək!

- Cəzan neçə il oldu, qadın?

-Eh, cəzam bəlkə də bir ömür boyu.

-Səni dustaqlıqdan kim azadlığa buraxdı.

-Sevdiyim qədirbilməz.

-O zaman ona təşəkkür borclusan?!

-Xeyr, ona nifrət borcluyam!

Hər şey gözəl idi

O, səhərin təmiz havasını ciyərlərinə çəkdi. Üzünü günbatana tutdu, gözüdolusu dağlara baxdı.

...Sıra ilə düzülmüş dağlara, dağları bağrına basan sıx ağcaqayın meşələrinə, göy cisimlərini müşahidə edən Rəsədxanaya, dağların arasında yerləşən tərəkəmə yataqlarına, biçilmiş sünbül zəmilərinə, hər gün seyr etdiyi kənd həyatına və bir də, bir də kənd qəbiristanlığına və orada yatan əhli-qüburlarına salamat qalın,- deyəcək, qadın sabah.

Səhərlər səsinə oyandığı yahu qurultusuna, arıquşu, çaydaçapan, sığırçın, sərçə, sarıköynək, hər gün gördüyü lakin tanımadığı quşlarla sağollaşacaq.

Hə, bir də yamacların döşündə otlayan tənha at üçün darıxacaq qadın.

Bağçamdakı növbənöv çiçəkləri yada salmadım. Vay, vay məndən inciməsələr yaxşıdır. Hələ meyvə ağaclarımı demirəm, qəribsəyəcək, tərəvəz dolu bostanda isə tağlar mənsiz yəqin ki, boynunu bükəcəklər.

Burada həyat mənsiz davam edəcək, olduğu kimi. Mən isə kənd həyatının görüntülərini düşüncəmin lentinə köçürüb aparacağam özümlə şəhərə.

Şükür Tanrım

Könlümün qaranlığı aydınlanır, dan üzünü atan sabah kimi. Deyəsən, əvvəlki iradəm geri dönür axı?! Dönsün, Tanrım dönsün. Lütfən dönsün.

Könlümün zülmətinə işıq tutmaq istəyirəm artıq. Tanrım, yalvarıram sənə mənə güc, təpər ver. Bir azdan

qaranlıq düşəcək. Qaranlıqdan qorxmuram, çünki könlüm aydınlanıb.

Şükürlər olsun sənə İlahi, çox şükür ki, onu könlümdən söküb ata bildim. Artıq varlığı mənim üçün heç nə ifadə etmir.

Könlümü aydınlatdığına və varlığına, nuruna şükür Tanrım!

Zindan

Özün öz daxilində qeybə çəkilibsən, xəbərin varmı? Kimin xiffətini çəkirsən, onun? O isə... ondan isə insanlıq və mərhəmət gözləmə.

Ətrafına yaxşı bax, kimsələrdən qaçma. Odur ki, özünü daxilində məhkum etmə. Onu ürəyindən sil və rahat nəfəs al. At, at onu qəlbinin zindanına!

Əzablı düşüncələr

Kofe

(yaddaş)

Bir fincan kofe...içdinmi? İçdin. Amma bu kofe illər öncəni yadına salmadımı, qadın?!

...o zamanları iş yerində tənha idin. Bir ümid, bir istək arzusundaydın. O ümid ki, sən onu bütün varlığınla arzulayırdın.

O zaman ki, sənə göz qoyurdular. Səni sıxışdırırdılar. Sənə yaxın olmaq üçün hiyləyə əl atırdılar. O zaman ki, tək idin. Yalnız və yalnız yanında kofe paketlərin və bir də hər əzaba şahid olan kofe fincanı vardı. Pəncərədən baxa-baxa və kofeni içə-içə Allaha necə yalvardığın yadındamı?

Bu o zaman idi ki, sən dirənirdin...qarşına çıxan bütün maneələrə. Və bu o zaman idi ki, sonunda səni döydülər. Bəli, döydülər. Bu o zaman idi ki, ağladın, için-için ağladın. Amma təslim olmadın! Ümidlə gözlədin.

Ümid dedim sizə. O ümid ki, bu gün aram-aram doğrulur. Şükür Allaha! Şükür sənə İlahi, bu günlər üçün.

Mən də...ah, nələri yada saldım. Hələ nələri də qəlbimin dərinliyində saxladım. Eh, mən nə deyim mənə?! Bir çaşka kofem haram oldu ki!

Salamat qalın

Sərin dağ havasında dincəlmək, təbiəti hər gün seyr etmək, dünyanın səsinə qulaq asmaq və təbiətlə qol-boyun olmaq gözəl hisslər idi. Hər başlanğcın bir sonu var, əlbəttə.

Qeyd etdiyim bütün bu gözəllikləri arxada buraxıb gedirəm. Di, salamat qalın dağlar!

Həyat eşqinə...

-Hara gedirsən, qadın, dəniz kənarınamı? Orada kimi görmək istəyirsən?

-Qocanımı, bəlkə gəlmədi?

Qadın beynindəki suallardan qorxdu.

-Yox, o, gələcək, mütləq gələcək! Bəlkə...

Qadın tələsirdi. Yolu keçmək üçün işıqforun yanmasını gözləyirdi.

Yolun kənarındakı göyərçin onun ayağına dolaşacaqmış kimi yan-yörəsində gəzirdi.

Asfalt yolunda nə axtarır bu göyərçin? Bir az da irəliləsə maşınların təkərləri altında qalacaq. Qadın:

-Kiş...ş...edərək göyərçini uçurtdu. Bu da işıqfor. Buyur, keç, qadın.

Dənizin təmiz havasını ürəkdolusu ciyərlərinə çəkdi. Qoy ciyərlərim bayram etsin, deyə fikirləşdi.

-Hanı Qoca? Bəs niyə gəlməyib hələ? Narahat olmağa başladı.

Dənizə boylandı. Suyu təmiz deyildi, mazutlu idi. Lakin buna baxmayaraq suyun üzü balıqlarla dolu idi. Suya atılan bir parça çörək üstündə çəkişən balıqlar bir-neçə dəqiqənin içərisindəcə çörəyi həzm etdilər.

-Maşallah! Gör nə qədər balıq var, -deyə düşündü qadın.

Yadına Qoca düşdü. Narahatlıqla ətrafına boylandı;

-Hardasan Qoca?!

Allah eləməmiş...Bəlkə...Qadın sözünü yarımçıq uddu.

-Sus..bu nə axmaq fikirdi.

Budur gəlir! Sevindi.

Uzaqdan görünən Qoca ləngər vururdu.

-Yox, yox Qoca, Allah xatirinə, dik dur və dik gəz! Həyat eşqinə!

Pul həsrəti

Qadın dəniz kənarında, ağac altındakı skamyada əyləşib, dincəlirdi. Üzü dənizə əyləşən qadın ürəyində dənizlə həmsöhbət idi. Lakin bununla kifayətlənmədi. Ayağa qalxdı, qırçın sulara yaxınlaşdı. Elə bu vaxt dənizkənarı bulvarda gəzinti qatarı göründü. Vaqonların üstünə belə bir lövhə vurulmuşdu; səyahət otaqları. Qadın düşündü; -üstümdə yalnız yol pulumdur, artıq pulum olsaydı səyahət qatarına minərdim.

İlahi, qəpik-quruş həsrəti də çəkərəmmiş.

Sadəcə

Qəhər boğazına dolmuşdu. Niyə ağlamaq istəyirsən?- o, özünə sual verdi. Qəribədir, adam da səbəbsiz ağlayar, məgər. Yolda səndən başqa kimsə yoxdur axı, sənə nəsə desin;- Niyə ağlayırsan?

-Bilmirəm, dedi özünə. Sadəcə ağlayırdı qadın.

Dəyərli eksponatlar

Qapını döydülər. Açan olmadı. Qadının anası qapını ehmalca itələdi. Səliqəli həyətdə kimsə gözə dəymirdi.

-Ay ev yiyəsi!-deyə qadının anası səsləndi.

Onları anasının əmisioğlu İsa müəllim və onun həyat yoldaşı Şairə xanım qarşıladı. Çox mehriban və gülərüz olan ev sahiblərinin gözəl həyət-bacaları vardı. Lakin bu gözəlliklər içərisində ən çox maraq doğuran ev sahibinin şəxsi kolleksiyası oldu. Qiyməti pulla ölçülməyən dəyərli eksponatlar toplamışdı, İsa müəllim. Onun maddi dəyərlərimizə, xalqımızın milli sərvətinə olan marağı və onların toplanıb qorunması təqdirə layiqdir. Bu eksponatlar onun zəngin mənəviyyatından ziyalı mövqeyindən xəbər verirdi.

-Əhsən, İsa müəllim!

Ev sahibi

Gecə. Hava sakit və susqundur. Qadın həmişəki kimi təkdir. Nə isə yazır, yox, deyəsən, yazdıqlarını yoxlayır?

Qapı açıldı. Lakin kimsə görünmədi və külək də əsmədi. Qapı yenidən cırıldadı. Qadın başını qaldırdı. Kölgə qapının şüşə pəncərəsi arxasından çəkilib, yox oldu. Qadın üşələndi. Lakin özünü o yerə qoymadı. Və ürəyində düşündü;

-Evin həqiqi sahibidir, yəqin?! Qorxma qadın, başını sal aşağı, öz işini gör, ayağa qalxıb heç kimi incitmə.

Şirvan aşıqları haqqında

Efirdə Azərbaycan radiosudur. Şirvan şikəstəsi verilişi yayımlanır. Aparıcı Türkan.....verilişin qonağı şairə Mətanət Ulu Şirvanlı.

-Səsinizə qüvvət Şirvan aşıqları.

Salam, Qoca

Yazdıqlarım aydın və sadədir. Şübhə doğuracaq heç nə yoxdur. Burada yalnız bir həqiqət var; həyatda doğru bildiyinin arxasınca getmək, mənəviyyatını qorumaq və ruhunu incitməmək. Bir həqiqət də var ki, düşünən insan heç nəyə qane olmur. Nə tapdıqlarına, nə də əldə etdiklərinə. Əldə etmək isə asan başa gəlmir. Və bir də o var ki, həqiqət səltənəti taxtında yalnız salama qiymət verənlər əyləşə bilərlər.

İncimə, ölümün bir addımlığındasan. Əllərin, ayaqların əsir, lakin həyat eşqi səni yaşamağa həvəs-ləndirir. Yaşa qoca! Yaşa ki, səndən həyat fəlsəfəsini öyrənək.

Bu, kitab sonlanmaq üzrədir, Qoca. Mən isə sağollaşmaq istəmirəm. Yalnız salam vermək istəyirəm. İlk dəfə sənə salam verdiyim kimi; - Salam, Qoca, deməklə. Və beləliklə, yenidən sənlə söhbətə başlamaq imkanı əldə edirəm. Özünə fikir ver, Qoca.

Və bir də...və bir də...həyat davam edir...

Səmavi düşüncələr

Həyat davam edir...

Qadın düşünürdü; qələmə aldıqları bir-birindən ayrılmaz hissələrdir ki, öz mənası ilə zərif və olduqca narın sirr pərdəsinin arxasında gizlənirlər. Qələmə aldıqlarının nəticəsi isə sənin varlığındır, qadın.

Sən, ey daxili zülmətinə bürünən qadın, əslində aydınlıq içərisindəsən. Nur zərrəcikləri sənin vücudunu sarıb. Odur ki, dilinə de, şikayət etməsin. Könlünə de, fərəh olsun, əllərinə de qələmini daha iti eyləsin, ayaqlarına de ki, addımını yerə bərk bassın. Və düşüncələrinə de ki, yalnız və yalnız Tanrısını düşünsün!

Tanrım, Sənə şükürlər olsun, çox şükürlər olsun gücün və qüdrətinlə bu kitab da qələmə alındı, sona yetdi. Sənə şükürlər olsun, Tanrım, - deyən qadın düşündü;

- Yəqin ki, bu hələ son deyil, həyat davam edəcək! Bax beləcə;

- Salam, Qoca! - deməklə...

MÜNDƏRİCAT

KONSEPTUAL DÜŞÜNCƏ MƏNBƏYİ
(İ.Kazımov) 3
Müəllifdən 14

Vital düşüncələr 15
Qayğılı düşüncələr 20
Düşüncə yağışı 24
Ağlayan düşüncələr 28
Lal düşüncələr 36
Sənli düşüncələr 46
Pozitiv düşüncələr 53
Qocalmış düşüncələr 57
Oxunmayan düşüncələr 61
Şehli düşüncələr 67
Payız düşüncələri 72
Yüyürən düşüncələr 76
Düşündürən düşüncələr 83
Sonsuz düşüncələr 88
Xəzan düşüncələr 99
Zərif düşüncələr 106
Dağılmış düşüncələr 112
Kədərli düşüncələr 117
Közərən düşüncələr 129
Əzablı düşüncələr 135
Səmavi düşüncələr 140

Təşkilati dəstək:

Ukrayna Azərbaycanlılarının Birləşmiş Diasporu
www.aybkitab.az
www.kitabevim.az
"Yazıçı" nəşriyyatı
"Vektor" nəşriyyatı
"Mütərcim" nəşriyyatı
Yayım Assosiasiyası
"Bayatı" kitab dükanı

Əlaqə telefonu: (+99450) 358 77 55

*** *** ***

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 04.11.2015. Format: 70x100 1/32.
Qarnitur: Times. Həcmi: 8, 5 ç.v. Tiraj: 300. Sifariş № 241.
Qiyməti müqavilə ilə.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az